İqtisadi Tədqiqatlar Mərkəzi
Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu
İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi

"Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının

**"Yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru" istiqaməti üzrə**

# MONİTORİNQ HESABATI

**Qubad İbadoğlu**

**Bakı – yanvar 2017**

**Qısaltmalar**

1. **ABAD** - Ailə Biznesinə Asan Dəstək
2. **ARMSŞ** – Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası
3. **ARESİDP** - Azərbaycan Respublikasına Energetika Sahəsində İslahatlara Dəstək Proqramı
4. **ARDNŞ** - Azərbaycan Respublikası Dövlət Neft Şirkəti
5. **ARDNF** - Azərbaycan Respublikası Dövlət Neft Fondu
6. **AİTEMP -** "Azərbaycan 2020: Gələcəyə Baxiş" İnkişaf Konsepsiyasinın monitorinqini aparan "Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması" layihəsi
7. **AEYK** - Aqroenerji Yaşayış Kompleksi
8. **ARMBNP PHŞ** - Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxs
9. **AMB** - Azərbaycan Mərkəzi Bankı
10. **AzAl** - "Azərbaycan hava yolları" Dövlət Konserni
11. **BXİ** - Birbaşa xarici investisiyalar
12. **ƏMDK** – Əmlak Məsələləri Dövlət Komitəsi
13. **ƏSF** - Əmanətlərin Sığortalanması Fondu
14. **VN** - Vergilər Nazirliyi
15. **VM -** Vergi Məcəlləsi
16. **İN** – İqtisadiyyat Nazirliyi
17. **CQDL** - Cənub Qaz Dəhlizi Layihəsi
18. **DTT** - Dünya Ticarət Təşkilatı
19. **DİF** - Dünya İqtisadi Forumu
20. **DSK** – Dövlət Statistika Komitəsi
21. **DGK** – Dövlət Gömrük Komitəsi
22. **KTN** – Kənd Təsərrüfatı Nazirliyi
23. **NK** – Nazirlər Kabineti
24. **GES** - Günəş Elektrik Stansiyaları
25. **HES** - Hibrid Elektrik Stansiyası
26. **MTN** – Mədəniyyət və Turizm Nazirliyi
27. **MN** – Maliyyə Nazirliyi
28. **SBİİYF** - Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu
29. **TANAP** - Trans-Anadolu qaz kəməri
30. **TŞ** – Turizm Şurası

**Mündəricat**


İcmal ………………………………………………………………………………………. 4

Giriş ……………………………………………………………………………………….. 5

1. Səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması ………………………………………………… 7
2. İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı …. 20
3. Elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi …………………….. 29

Nəticə və tövsiyələr ………………………………………………………………….... 31

## İcmal

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxiş" İnkişaf Konsepsiyasinın (bundan sonra - Konsepsiya) 4-cü bölməsi "Yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru" səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması (1); iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı (2); elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi (3) alt bölmələrindən ibarətdir.

Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİF) İsveçrənin İqtisadi Əməkdaşlıq Təşkilatının maliyyə dəstəyi ilə həyata keçirdiyi "Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması" (AİTEMP) layihəsi çərçivəsində hazırlanan bu hesabatda 2013-cü ildən bəri, ötən 3 il 9 ay ərzində yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru atılmış addımları və onun səmərəliliyini qiymətləndirilib. Bu qiymətəndirmə hesabatı çərçivəsində görülmüş işlərin bazasında monitorinq aparılıb, əlaqədar dövlət orqanlarında görüşlər, ekspertlərlə fokus qrup müzakirələri keçirilib. Qiymətləndirmə hesabatında hər 3 alt bölmə üzrə ayrılıqda monitorinq aparılsa da, yekunda yüksək rəqabətli iqtisaadiyyata doğru atılan addımlar ümumilikdə dəyərləndirilərək, tövsiyələr irəli sürülüb.

**Giriş**

Dünya İqtisadi Forumunun (DİF) ölkələrin qlobal rəqabətlilik indeksinə dair açıqladığı hesabata görə[1] 2016-cı ildə bu məqsədlə 138 ölkənin rəqabət qabiliyyəti qiymətləndirilib. Azərbaycan siyahıda 3 pillə irəli keçib və hazrda 37-ci yerdədir. Ötən il 140 ölkə üzrə dəyərləndirmə aparılanda Azərbaycan 40-cı yerdə qərarlaşmışdı. Son hesabata görə, iqtisadiyyatın rəqabət qabiliyyətindən ötrü tələb olunan əsas göstəricilərə görə Azərbaycan 49-cu yerdədir, yəni ötən ilə nisbətən 6 pillə geriləyib. Çünki, ölkəmiz institutların vəziyyətinə görə 48, infrastrukturun səviyyəsinə görə 55, makroiqtisadi mühitin inkişafına görə 39, səhiyyə və ibtidai təhsilin səviyyəsinə görə 75-ci yeri tutub. Azərbaycanın beynəlxalq səviyyəli reytinq göstərəricilərinin yaxşılaşmasında, sağlam rəqabətli milli iqtisadiyyatın formalaşmasında səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması əhəmiyyətli rol oynayır. Bu kontekstdə qarşıya qoyulan sosial-iqtisadi hədəflər yüksək səmərə ilə fəaliyyət göstərən, dünya miqyasında rəqabətə qadir olan iqtisadi sistemin formalaşmasından asıldır. Mütərəqqi təcrübələr göstərir ki, belə bir sistem yalnız azad sahibkarlıq təşəbbüsünə və sağlam rəqabətə əsaslanan bazar münasibətləri şəraitində mümkündür.

Bununla bərabər, iqtisadi və sosial sahələrdə davamlı yüksək artım sürətinin təmin olunması bazar iqtisadiyyatı şəraitində dövlət tənzimləməsinin adekvat şəkildə qurulmasını, qlobal dünya iqtisadiyyatındakı son meylləri və istiqamətləri nəzərə almaqla, bu tənzimləmənin daha da təkmilləşdirilməsini tələb edir. Konsepsiyaya görə, Azərbaycanda dövlət tənzimləməsi və idarəetməsi funksiyaları, əsasən makroiqtisadi sabitliyin qorunub saxlanılması, ölkədə işgüzar mühitin təkmilləşdirilməsi və sərbəst rəqabətin təmin olunması, yerli və xarici investisiyalar üçün əlverişli şərait yaradılması, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi yönündə tənzimləmə tədbirləri, investisiya qoyuluşları və irimiqyaslı infrastruktur layihələrinin reallaşdırılması, əhalinin sosial müdafiəsinin səmərəli təşkili istiqamətlərində həyata keçiriləcəkdir. Bu istiqamətlərin reallaşdırılması sahəsində başlıca addımlar əsasən 2016-cı ildən atılmağa başlayıb. Dünya bazarında neftin qiymətinin yüksək olduğu 2013-2014-cü illərdə Azərbaycan höküməti makroiqtisadi sabitliyi qoruyub saxlasa da, sonradan ucuzlaşan neft qiymətləri valyuta daxilolmalarını azaltmaqla milli iqtisadiyyyat üçün yeni çağırışlar yaratdı. Bu çağırışlar arasında iqtisadiyyatın rəqabət qabliyyətinin artırılması önə çıxdı. Çünki qiymətlərin ucuzlaşması səbəbindən rəqabətədavamlı neft və neft məhsullarının iqtisadiyyatda oynadığı rol aşağı düşdüyündən 2015-ci ildən etibarən makroiqtisadi göstəricilər pisləşməyə başladı. Bu ilk növbədə iqtisadiyyat sahəsidə yenidən islahat tələbləri yaratdı. Bu dəfə

[1] http://www3.weforum.org/docs/GCR2016-2017/05FullReport/TheGlobalCompetitivenessReport2016-2017_FINAL.pdf

islahatların hədəfində idxalı əvəz edən məhsulların istehsalı üzərində ixtisaslaşan, eyni zamanda regional və beynəlxalq bazarlara daxil ola bilən saglam rəqabət qabliyyətinə malik olan milli iqtisadiyyatın formalaşması durur. Bu hədəfə çatmaq üçün Konsepsiyada səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı, elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi həlli vacib hesab edilən vəzifə kimi qarşıya qoyulub.

Qarşıya qoyulan hər 3 vəzifəyə 2020-ciilədək nail olmaq üçün hələ görüləsi işlər çoxdur. Onların bir-birilə sıx qarşılıqlı əlaqələrini nəzərə alsaq, bu məqsədə yönələn fəaliyyətlər sistemli xarakter daşımalıdır ki, son nəticədə iqtisadi islahatlar dönməz xarakter alsın. İslahatların xarakteri həyata keçirilən tədbirlərin icra vəziyyətinin qiymətləndirilməsi və monitorinqinin aparılmasını tələb edir. Vaxtında həyata keçirilən qiymətləndirmə buraxılmış səhvlərdən nəticə çıxarılması, ardıcıllığa riayət edilməsi və gələcək üçün tövsiyələrin hazırlanması baxımndan çox önəmlidir. Odur ki, AİTEMP layihəsi çərçivəsində hazırlanan bu hesabatda başlıca məqsəd aparılan islahatlara dəstək vermək, onun müntəzəmliliyini və dönməzliliyini təmin etmək və bütövlükdə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə töhfə verməkdir.

## 1. Səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması

Konsepsiyanın 4.1.-ci "Səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması" altbölməsində nəzərdə tutulan məsələlərin həlli üçün atılan ilk addım 25 yanvar 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı Azərbaycan Respublikası Prezidentinin iqtisadi islahatlar üzrə köməkçisi institutunun yaradılması oldu[2]. Bundan sonra 16 mart 2016-cı ildə Azərbaycan Respublikası prezidenti tərəfindən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında Sərəncam imzalanmışdır. Sərəncamla həyata keçirilmiş iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədi ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilib. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nə müvafiq olaraq inkişaf planlarının işlənilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin İqtisadi islahatlar üzrə köməkçisinin rəhbərliyi ilə İşçi qrupu yaradılıb[3]. Onlara ayrılan 6 aylıq müddət başa çatdıqdan sonra Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" və eyni zamanda iqtisadiyyatın əsas sektorları ("Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi"; "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"; "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"; "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi";"Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"; "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" ; "Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi"; "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" ; "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"; "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"; "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi". ) üzrə strateji yol xəritələri təsdiq edilmişdir. Milli iqtisadiyyat perspektivləri üzrə strateji yol xəritəsinin başlıca məqsədi Azərbaycanda davamlı

[2] http://www.president.az/articles/17572

[3] http://www.president.az/articles/18121

iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin etməkdir. Sənəddə qeyd olunur ki, qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyi gücləndirəcək və yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır.

Strateji yol xəritəsində göstərilir ki, milli iqtisadiyyat üzrə 2020-ci ilədək strateji baxışın əsas hədəfləri Azərbaycan iqtisadiyyatının əvvəlcə xarici şokların mənfi təsiri nəticəsində yaranmış vəziyyətdən çıxmaq üçün qısamüddətli dönəmdə sabitləşdirilməsinə, ortamüddətli dönəmdə şaxələnmə və yeni hərəkətverici qüvvələr hesabına inkişaf xəttinin bərpa edilməsinə, dövrün sonunda isə dünya iqtisadiyyatına daha çox inteqrasiya etməklə rəqabət qabiliyyətinin artırılmasına nail olmaqdır**.**

Həmin sənəddə həmçinin qeyd olunur ki, 2025-ci ilədək milli iqtisadiyyat üzrə uzunmüddətli baxış dayanıqlı inkişaf magistralına daxil olmuş Azərbaycan iqtisadiyyatının bütün tərəflərin faydalı əməkdaşlığı şəraitində daha çox dəyər yaratmaqla rəqabət qabiliyyətinin gücləndirilməsinə nail olmaqdır.

Göründüyü kimi həm 2020-ci ilədək strateji və həm də 2025-ci ilədək uzunmüddətli baxışlarında son nəticə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsidir.

Strateji Yol Xəritəsi 2025-ci ilə qədər ÜDM-də 3 faizdən çox orta illik real artım və əlavə olaraq da 450 mindən çox yeni iş yerinin yaradılmasını nəzərdə tutur. İqtisadiyyatın sektorları üzrə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində qeyri-rəsmi məşğulluğun payı azalacaq və aşağıdakı dörd xüsusi hədəfə nail olunacaqdır:

**1)** Qeyri-neft sektoruna yönəldilmiş birbaşa xarici investisiyaların qeyri-neft ÜDM-dəki payının hazırkı 2,6 faizlik göstərici ilə müqayisədə 2025-ci ilə qədər 4 faizə çatdırılacaq.

**2)** Qeyri-neft sektoru üzrə ixracın 2015-ci ildəki adambaşına 170 ABŞ dollarından 2025-ci ildə ən azı 450 ABŞ dollarına qaldırılacaq.

**3)** Ticari mal və xidmətlər sektorunda, məsələn istehsal və ya turizm sektorlarında 2025-ci ilə qədər 150 min əlavə iş yeri yaradılacaq.

**4)** Dövlət büdcəsinin ARDNF-in transfertlərindən asılılığı azaldılacaq.

Strateji yol xəritəsi ilə yanaşı Konsepsiyada da qeyd olunur ki, 2020-ci ilədək makroiqtisadi siyasətin koordinasiyası gücləndiriləcək, maliyyə dayanıqlılığı baxımından optimal makro-fiskal çərçivə formalaşdırılacaq və adekvat pul siyasəti aparılacaqdır. Bu siyasətin birinci pilləsində inflyasiya hədəfi, digər makroiqtisadi hədəflər və bunlara uyğun tənzimləmə vasitələri, ikinci pilləsində isə maliyyə sektorunda sabitlik hədəfləri, sektorda fəallığı və riskləri idarə edəcək vasitələr

yer alacaqdır. İnflyasiya hədəfinə uyğun olaraq iqtisadiyyatın pula tələbatının ödənilməsinə xüsusi diqqət yetiriləcək, monetar idarəetmənin institusional bazası təkmilləşdiriləcəkdir.

Bu isə istiqamətdə ilk addım 21 fevral 2015-ci ildə atıldı. Həmin gün Azərbaycanda baş vermiş ilk inzibatı devalvasiya nəticəsində Azərbaycan Mərkəzi Bankı (AMB) manatın dollara görə məzənnəsini 1.05 AZN təyin etdi. Nəticədə Azərbaycan manatı 1 gündə ABŞ dollarına nisbətən dəyərini 33.8 faiz itirdi. 21 dekabr 2015-ci ildə Azərbaycan manatının ikinci devalvasiyası nəticəsində 1 ABŞ dollarının rəsmi məzənnəsi 1,55 manat səviyyəsində qərarlaşdı. Hazırda, 1 oktyabr 2016-cı ilə olan son məlumata Azərbaycan manatı ABŞ dollarına nisbətən məzənnəsi 1,617 manatdır.[4] Beləliklə də 2015-ci il fevralın 21-dən sonra Azərbaycan manatının aparıcı ölkələrin valyutalarına məzənnəsində baş verən kəskin dəyişikliklər ölkədə yeni makro-maliyyə situasiyası yaratdı. Yeni makro-maliyyə situasiyasının əsas özəllikləri özünü istehlak qiymətlərinin bahalaşmasında, ölkədən kapitalın xarıcə axınının sürətlənməsində, mərkəzləşdirilmiş uçot dərəcəsinin artmasında, tədiyyə balansının və xarici ticarət balansının kəsirinin çoxalmasında göstərdi.

Bütün bunları nəzərə alaraq, 15 iyul 2016-cı ildə Azərbaycan Respublikası Prezidenti “Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında” (ARMSŞ) Fərman imzaladı. Fərmanda qeyd olunur ki, makroiqtisadi sabitliyin və milli iqtisadiyyatın rəqabət qabiliyyətinin qorunub saxlanılması cari, orta və uzunmüddətli perspektivdə ölkə iqtisadiyyatı üçün mövcud və potensial mənfi təsirlərin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsini vacib edir. Qeyd olunan məqsədlərə nail olunması üçün əlverişli biznes və investisiya mühiti, sahibkarlara öz hüquqlarını müdafiə etmək imkanları yaradılmalı, bank sisteminin etibarlılığı artırılmalı, sahibkarların maliyyə mənbələrinə çıxış imkanları sadələşdirilməli, normativ hüquqi bazanın qabaqcıl beynəlxalq təcrübə və milli iqtisadiyyatın xüsusiyyətləri nəzərə alınmaqla təkmilləşdirilməsi təmin olunmalıdır.

Bu fərmanla ölkənin makroiqtisadi sabitliyinin daha da möhkəmləndirilməsi və maliyyə dayanıqlılığının təmin edilməsi, bu sahədə koordinasiya olunmuş siyasətin həyata keçirilməsi, habelə səmərəli tənzimləmə və hüquq tətbiqetmə praktikasına nail olunması məqsədilə ARMSŞ-nin yaradılması qərara alındı. Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadənin rəbərliyi ilə yaradılan Şuraya Azərbaycan Respublikası Prezidentinin İqtisadi islahatlar üzrə köməkçisi Natiq Əmirov, Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov, Azərbaycan Respublikasının iqtisadiyyat naziri, Şahin Mustafayev, Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Elman Rüstəmov, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının sədri Rüfət Aslanlı və Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru

---

[4] http://musavat.com/news/iqtisadiyyat/oktyabrin-ilk-ish-gunu-dollarin-resmi-mezennesi-16170-manat-olacaq_381644.html

Şahmar Mövsümov daxildir. Şuranın cari fəaliyyətinin təşkili məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankınının nəzdində Şuranın Katibliyi yaradıldı.

Fərmanda qeyd olunur ki, nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi işinə Şura tərəfindən yerli və xarici ekspertlər, mütəxəssislər, beynəlxalq təşkilatlar və elmi müəssisələr cəlb oluna, müxtəlif dövlət orqanlarının və maraqlı tərəflərin nümayəndələrindən ibarət ayrı-ayrı istiqamətlər üzrə işçi qruplar yaradıla bilər.

Bununla yanaşı, Şuraya bir ay müddətində ölkədə maliyyə–kredit sektorunun mövcud vəziyyətini təhlil etməsi, habelə qanunvericilik bazasının ekspertizasını həyata keçirməsi, maliyyə sabitliyinin tənzimlənməsi sahəsində qabaqcıl beynəlxalq prinsip və standartlar əsas götürülməklə gələcəkdə yarana biləcək təhdidlərin qarşısının alınması, makroiqtisadi sabitliyin, maliyyə dayanıqlığının təmin edilməsi ilə bağlı baxışa, orta perspektivdə atılacaq addımlara və icra mexanizmlərinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi tapşırılıb və qeyd olunub ki, makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi istiqamətində mütəmadi tədbirlər həyata keçirməklə bu barədə Azərbaycan Respublikası Prezidentinə hər rübdən sonrakı ayın 30-dək məlumat verilsin. Təəssüf ki, fərmanın imzalanmasında 6 aydan çox müddət ötməsinə baxmayaraq bu istiqamətdə qarşıya qoyulan vəzifələrin icrası məqsədilə görülən işlərə dair ictimaiyyət yetərincə məlumatlandırılmayıb.

Konsepsiyanın 4.1.-ci "Səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması" altbölməsində diqqəti cəlb edən hissələrdən biri də vergi və fiskal blokdur. Bu blokda büdcə vəsaitlərinin formalaşması və istifadəsi sahəsində fiskal intizamın təmin edilməsi, vəsaitlərin düzgün bölüşdürülməsi və xərclərin səmərəliliyinin artırılması hədəf götürülüb. Konsepsiyada qeyd olunur ki, bu məqsədlə müxtəlif büdcə riskləri (xarici, maliyyə, kənarlaşma, əməliyyat riskləri və s.) üzrə çevik qiymətləndirmə aparılacaqdır. İqtisadi sistemin rəqabət qabiliyyətinin daha da artırılması məqsədi ilə tədricən passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçid təmin ediləcək, vergi dərəcələrinin optimallaşdırılması istiqamətində həyata keçiriləcək tədbirlər sahibkarlıq fəaliyyəti üçün əlverişli mühit yaradılmasına kömək edəcəkdir.

Müqayisəli hesablamalar göstərir ki, vergi dərəcələrinin rəqabətqabiliyyətliliyi baxımından Azərbaycan region dövlətləri arasında ən aşağı mövqeyə malikdir. Belə ki, cəmi vergi ödənişləri dərəcəsi Azərbaycanda 39,8 faiz təşkil etdiyi halda, bu göstərici Gürcüstanda 16,4 faiz, Qazaxıstanda 29,2 faizdir. Dünya Bankının məlumatına görə, 2014-cü ildə Azərbaycanda idxal xərcləri (1 konteyner üzrə) 3450 ABŞ dolları təşkil etmiş, lakin bu göstərici Türkiyədə 1235 ABŞ dolları, Gürcüstanda 1595 ABŞ dolları, Rusiyada isə 2595 ABŞ dolları həcmində olmuşdur. Dünya İqtisadi Forumunun 2015-ci il hesabatına görə, Azərbaycan "Gömrük prosedurlarının biznes üzərində yükü" indeksinə görə dünyada 144 ölkə arasında 122-ci yerdədir.

Konsepsiyada nəzərdə tutulan vergi və fiskal istiqamətə məsul olan dövlət orqanları Vergilər Nazirliiyi (VN) və Maliyyə Nazirliyidir (MN). Son dövrlərdə VN tərəfindən passiv vergi

siyasətindən aktiv vergi siyasətinə keçidin təmin edilməsi, vergi dərəcələrinin optimallaşdırılması istiqamətində bəzi işlər görülüb. Bu istiqamətdə ən ciddi hadisə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli, 2257 nömrəli Sərəncamı ilə təsdiq edilmiş 2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləridir[5].

Bu sərəncam vergi inzibatçılığının təkmilləşdirilməsini də əhatə edir. Sərəncamın icrasına məsul olan başlıca dövlət orqanı VN-dir. Nazirliyə üç ay müddətində “2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri” nəzərə alınmaqla vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməsi, vergi orqanları tərəfindən keçirilən vergi yoxlamalarının, xüsusilə kameral vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılması üzrə inzibatçılığı təkmilləşdirməsinin, vergi yoxlamalarının təyin edilməsi, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi prosesi üzrə vergi inzibatçılığını təkmilləşdirsin, habelə aparılan yoxlamalarda vergi ödəyicilərinin iştirakının təmin edilməsi, nümunəvi vergi ödəyicisi üçün meyarlarının müəyyən edilməsi, həmin vergi ödəyicilərinə münasibətdə vergi inzibatçılığının sadələşdirilməsi və ünvanlı xidmətlərin əhatə dairəsini genişləndirilməsi tapşırılıb. Eyni zamanda VN-ə tapşırılıb ki, vergi qanunvericiliyinə əməl edən nümunəvi vergi ödəyiciləri və vergi qanunvericiliyində mütəmadi olaraq nöqsanlara yol verən intizamsız vergi ödəyiciləri ilə bağlı məlumatları VN-in rəsmi internet səhifəsində yerləşdirərək ictimaiyyətə açıqlasın.

Vergi ödəyiciləri ilə vergi orqanları arasında birbaşa təmasın minimuma endirilməsi məqsədilə elektron auditin tətbiq dairəsini genişləndirilməsi və bu sahədə keçirilən vergi yoxlamalarının keyfiyyətini artırılması, müasir standartlara uyğun olaraq vergi ödəyicilərinə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi məqsədilə nazirliyin Çağrı Mərkəzində beynəlxalq təcrübədə tətbiq olunan “Outbound Call Centre” (geriyə - müştəriyə zəng xidməti) funksiyalarının tətbiqinin təmin edilməsi, real vergi potensialının düzgün müəyyən olunması, vergi nəzarətinin keyfiyyətinin artırılması və nəzarət tədbirlərində şəffaflığın təmin edilməsi məqsədilə informasiya texnologiyalarının nailiyyətlərindən istifadə olunmaqla risklərin avtomatik emal edilməsinə, təsnifləşdirilməsinə, təhlilinə və vergi ödəyicilərinin risk meyarları üzrə qruplaşdırılmasına imkan verən risk qiymətləndirmə sistemini yaradılması, borclu vergi ödəyiciləri üzrə risk qruplarının müəyyən edilməsi və onların aid olduğu risk qrupundan asılı olaraq, borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması sahəsində vergi ödəyicilərinin maarifləndirilməsi və inzibatçılığın təkmilləşdirilməsinin təmin edilməsi, vergi orqanları ilə vergi ödəyicilərinin qarşılıqlı fəaliyyətinin səmərəli təşkili məqsədilə vergi bəyannamələrinin formalarını təkmilləşdirilməsi, vergi ödəyicilərinin vaxtına və resurslarına qənaət edilməsi məqsədilə VN-in Çağrı Mərkəzi vasitəsilə fiziki şəxslərin qeydiyyatı, şəhadətnamə dublikatının alınması, ASAN imzanın dəyişdirilməsi, fəaliyyətin

[5] http://www.taxes.gov.az/modul.php?name=qanun&news=1184

dayandırılması və ya bərpası kimi xidmətlər göstərilməsinin təmin edilməsi də yeni təşəbbüsün predmetinə daxildir.

Bununla yanaşı, ötən il Milli Məclisin son iclasında “Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında” Qanun layihəsini təsdiq edildi. Qanunda  növ vergi borclanması əks olunub: birinci maddədə borcun ödənilməməsinə görə yığılmış faizlərin silinməsi, ikinci maddədə maliyyə sanksiyalarının bir hissəssinin silinməsi nəzərdə tutulur. Qanuna görə, 1 yanvar 2017-ci il tarixə mövcud olan maliyyə sanksiyaları üzrə borcların 2017-ci ilin yanvar ayı ərzində 30 faizi ödənildikdə yerdə qalan borcların 70 faizi, 2017-ci ilin yanvar-fevral ayları ərzində 50 faizi ödənildikdə yerdə qalan borcların 50 faizi, 2017-ci ilin yanvar-mart ayları ərzində isə 70 faizi ödənildikdə yerdə qalan borcların 30 faizi silinəcək.  Vergi amnistiyası 44,7 min vergi ödəyicisini əhatə edəcək. Faiz borclanması üzrə ümumilikdə 386,4 milyon manat silinəcək. Bundan başqa, maliyyə sanksiyaları üzrə 6 304 vergi ödəyicisinin 3 milyon manat borcu silinəcək. Azərbaycanda ümumi vergi borclanması 1,527 milyard manat, o cümlədən faiz borclanması 386,4 milyon manat, maliyyə sanksiyaları 237,1 milyon manat təşkil edir.

Maliyyə bölməsində səmərəli dövlət tənzimlənməsini həyata keçirmək üçün 3 fevral 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (ARMBNP) publik hüquqi şəxs yaradılıb[6]. Publik hüquqi şəxsin yaradılmasının məqsədi Azərbaycan Respublikasının qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları (bank, bank olmayan kredit təşkilatları və poçt rabitəsinin operatoru) və ödəniş sistemləri fəaliyyətinin lisenziyalaşdırılması, tənzimlənməsi və nəzarəti, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində nəzarət sisteminin təkmilləşdirilməsi, həmçinin bu sahələr üzrə nəzarət sisteminin şəffaflığını və çevikliyinin təmin edilməsidir.

ARMBNP-nin nizamnaməsi qüvvəyə mindiyi gündən Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (QKDK), MN-nin Dövlət Sığorta Nəzarəti Xidməti (DSNX) və AMP yanında Maliyyə Monitorinqi Xidməti (MMX) ləğv edilib və onların istifadəsində olan dövlət əmlakı ARMBNP-yə verilib. Bu strukturun yaradılması ilə əlaqədar olaraq “Qiymətli kağızlar bazarı haqqında”, “Banklar haqqında”, “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında” və “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası qanunlarıda müvafiq dəyişikliklər edilib.

ARMBNP fəaliyyətə başlayandan sonra 10 kommersiya bankının lisenziyası ləğv edilib. Sonuncu belə qərar "Bank Standart"la bağlı olub. Bu bankın əmanətçilərə ödəyəcəyi 450 milyon manata yaxın vəsaiti də AMB maliyyə dəstəyi ilə Əmanətlərin Sığortalanması Fondu (ƏSF)

---

[6] http://www.president.az/articles/17670

qaytaracaq. Bundan əvvəl bağlanan 9 bankda yerləşdirilmiş qorunan əmanətlərin sahiblərinə qaytarılması üçün ƏSF-i 253 milyon manat xərcləyib. Bununla yanaşı onu da qeyd edək ki, AMB əlavə olaraq, Beynəxalq Bankın problemi aktivlərinin sağlamlaşdırılması məqsədilə hökumətə 6 milyard manata yaxın kredit verib. Hökumət bu pulu AMB-yə 2040-cı ildə qaytarmalıdır. Göründüyü kimi, son 2 ildə AMB tərəfindən bank sektorunun inkişafına 7 milyard manata yaxın kredit yönəldilib. Bununla yanaşı AMB "Azərbaycan hava yolları" (AzAl) Dövlət Konserni, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) kimi iri dövlət şirkətlərinə 2 milyard manatdan çox dövlət zəmanəti ilə kredit ayrılıb.

Beləliklə də AMB son il ərzində bank sektorunda problemli aktivləri təmizləmək funksiyası yerinə yetirir. Belə olan halda AMB-nin kredit emissiyası milli iqtisadiyyatda əlavə dəyər yaratmayıb. Bu da Konsepsiyanın maliyyə bölməsində səmərəli dövlət tənzimlənməsini həyata keçirmək qarşıya qoyulan hədəflərə çatmaq sahəsində problemlərin mövcudluğuna dəlalət edir.

Konsepsiyada nəzərdə tutualan büdcə vəsaitlərinin formalaşması və istifadəsi sahəsində fiskal intizamın təmin edilməsinə, vəsaitlərin düzgün bölüşdürülməsinə və xərclərin səmərəliliyinin artırılması istiqamətində MN, Hesablama Palatası (HP) və Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) qarşısında mühüm vəzifələr qoyulub.

Büdcə vəsaitinin formalaşdırılması istiqamətində vergi müfəttişlərinin fəaliyyətini stimullaşdırmaq üçün 11 avqust 2016-cı ildə Nazirlər Kabinetinin (NK) 303 saylı qərarı ilə "Vergi orqanlarının büdcədənkənar fondunun formalaşdırılması və onun vəsaitlərindən istifadə Qaydası" təsdiq edilib[7]. Bununla əlaqədar olaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində (VM) müvafiq dəyişikliklər edilib və bununla yanaşı "Vergi orqanlarının büdcədənkənar fondunun formalaşdırılması və onun vəsaitlərindən istifadə Qaydası" təsdiq edilib. Həmin qaydalara görə, vergi orqanları tərəfindən tətbiq edilən və dövlət büdcəsinə daxil olan maliyyə sanksiyaları məbləğinin 50 faizi hesabına formalaşır və vergi orqanları işçilərinin sosial müdafiəsi, o cümlədən vergi orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, vergi sahəsində elmi-texniki potensialın artırılması məqsədi ilə istifadə edilir.

"Büdcə sistemi" haqqında Azərbaycan Respublikasının qanununa uyğun olaraq, MN hər il Azərbaycan Respublikasının növbəti il üçün büdcəsi haqqında qanun layihəsini və növbəti 3 ilin dövlət və icmal büdcələrinin layihələrini açıqlayır. 2017-ci ilin layihəsində gələn ilin dövlət büdcəsinin gəlirlərini 15 milyard 955 milyon manat, xərclərini 16 milyard 600 milyon manat məbləğində təsdiq edilib. Qanuna əsasən, Azərbaycan Respublikasının 2017-ci il üzrə daxili dövlət borclanmasının yuxarı həddi 1 milyard manat, xarici dövlət borclanmasının yuxarı həddi 500 milyon manat olmalıdır. Dövlət büdcəsinin kəsirinin yuxarı həddini 645 milyon manat məbləğində təsdiqləmək nəzərdə tutulur. VN-in xətti ilə 2017-ci ilin dövlət büdcəsinə 7 milyard 210 milyon

[7] http://www.cabmin.gov.az/?/az/pressreliz/view/1977/

manat, Dövlət Gömrük Komitəsinin (DGK) xətti ilə 2 milyard 200 milyon manat, Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) xətti ilə 8 milyon manat cəlb etmək öhdəliyi qoyulur. Cari ildə ARDNF-dən büdcəyə 6 milyard 100 milyon manat köçürülməsi planlaşdırılır.

Fiskal siyasətin texnokratik istiqamətləri üzrə və dövlət investisiyalarının idarə edilməsinin keyfiyyəti göstəricilərinə görə əsas ticarət tərəfdaşları ilə müqayisədə bir sıra çağırışlar mövcuddur. Milli iqtisadiyyatın perspektivu üzrə Strateji Yol xəritəsində göstərilir ki, fiskal idarəetmə ilə bağlı digər diqqət çəkən məqam dövlət büdcəsinin icrasında aylar üzrə müəyyən qeyri–mütənasibliyin mövcudluğudur. Bir çox illərdə dövlət büdcəsinin dekabr ayında icrası digər aylarla müqayisədə əhəmiyyətli səviyyədə çox olur ki, bu da öz növbəsində iqtisadiyyatda müəyyən natarazlıqlar formalaşdırır.

Xüsusilə, ilin son ayında-dekabrda digər aylarla müqayisədə iki dəfədən artıq xərclənmənin həyata keçirilməsi diqqəti çəkir. İlk baxışdan hökumətin investisiya xərclərinə əl gəzdirdiyini ehtimal etmək olar. Amma ötən ilin büdcə icrasına dair ilkin təhlillər onu deməyə əsas verir ki, əsaslı vəsait qoyuluşlarında böyük ixtisarlar aparılmayıb. Bunu elə Azərbaycan Mərkəzi Bankının aylar üzrə büdcə bölgüsünə dair statistikasına əsasən demək olar. Bəllidir ki, ilin son ayında xərclərin "şişməsi" məhz investisiya layihələri ilə bağlı müqavilələrin son rübdə bağlanması ilə əlaqədardır. Ötən il büdcə xərclərinin 20 faizinin dekabr ayında istifadə edilməsi investisiya xərclərinin ixtisarı ilə bağlı ehtimalları şübhə altına alır. Daha aydın mənzərə yaratmaq üçün aşağıdakı cədvələ nəzər yetirək:

| Büdcə gəlirləri və xərcləri | 2016 (gəlirlər bölgüsü) milyon manatla | 2016 (xərclər büdcə bölgüsü) milyon manatla | 2016-cı ildə xərcləmələr, aylar üzrə, milyon manatla |
|---|---|---|---|
| Yanvar | 1349,6 | 516,4 | 0 |
| Fevral | 2382,5 | 1345,9 | 829,5 |
| Mart | 3678,5 | 2623,4 | 1277,5 |
| Aprel | 4713,6 | 3999,8 | 1376,4 |
| May | 5453,9 | 5316,1 | 1316,3 |
| İyun | 6133,8 | 6821,5 | 1505,4 |
| İyul | 7007,5 | 8193,5 | 1372 |
| Avqust | 8281,5 | 9348,5 | 1155 |
| Sentyabr | 10103,1 | 10622,2 | 1273,7 |
| Oktyabr | 12103,9 | 12468,2 | 1846 |
| Noyabr | 12965,5 | 13927,4 | 1459,2 |
| Dekabr | 17 501,2 | 17 742,4 | 3815 |

Göründüyü kimi, 2016-cı ildə dekabr ayında xərclər ötən ayların orta göstəricindən 1478,5 mln manatdan ilə müqayisədə 2,6 dəfə çox olub. Aylar üzrə orta bölgü 7-8 faiz olduğu halda, təqribən büdcənin 21,5 faizə yaxını yalnız dekabr ayında "silinib".

Xatırladaq ki, belə qeyri-bərabər proporsionallıq 2010-cu ildən ekspertlərin diqqətini çəkməyə başlayıb. Belə ki, 2010-cu ildə 11.8 milyard manatlıq büdcənin demək olar ki, 30 faizi, yəni 3,3 milyard manatı yalnız dekabr ayında xərclənib. Göründüyü kimi son 6 ildə hər ilin dekabr ayında orta göstəricidən iki-üç dəfə çox vəsait xərclənir. Bu isə haqlı olaraq büdcə vəsaitlərinin ilin sonunda xərclənməsi deyil, "silinməsi" təsəvvürünü yaradır və eyni zamanda bu büdcə vəsaitlərindən səmərəsiz istifadənin təzahürüdür.

Milli iqtisadiyyatın perspektivu üzrə Strateji Yol xəritəsində qeyd olunur ki, yüksək neft qiymətləri və gəlirləri dövründə ciddi fiskal genişlənmə fiskal siyasətin pro–tsiklik xüsusiyyəti haqda qənaətin formalaşdırılmasına imkan verir. Fiskal dayanıqlılığı və fiskal multiplikatorun yüksək həddini təmin edə bilən səmərəli qaydaların tətbiqi fiskal idarəetmənin keyfiyyətinin daha da yüksəldilməsi baxımından mühüm çağırış olaraq qalır.

Büdcənin formalaşdırılması ilə yanaşı, onun xərclərinin səmərəliliyinin artırılması hazırda dövlət orqanlarının qarşısıda duran başlıca vəzifələrdən hesab olunur. Odur ki, 15 sentyabr 2016-cı ildə Azərbaycan Respublikasının prezidenti "İcra hakimiyyəti orqanlarının və dövlət büdcəsindən maliyyələşən təşkilatların fəaliyyətində satınalmaların səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" fərman imzalayıb[8]. Bu fərmanın əsas məqsədi icra hakimiyyəti orqanlarının və dövlət büdcəsindən maliyyələşən təşkilatların fəaliyyətində səmərəliliyi artırmaq, ölkədə sahibkarlıq fəaliyyətini genişləndirmək, habelə biznes və investisiya mühitinin əlverişliliyini və rəqabət qabiliyyətini daha da yüksəltməkdir.

Fərmana əsasən, icra hakimiyyəti orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən 1 yanvar 2018-ci il tarixinədək idxal mallarının (işlərinin, xidmətlərinin) satın alınması dayandırılıb. Bu məhdudiyyət dövlət zəmanəti ilə alınmış xarici kreditlər, xarici qrantlar, ölkənin müdafiəsi və dövlət təhlükəsizliyi ehtiyacları ilə bağlı idxal olunan malların (işlərin, xidmətlərin), dərman və tibb vasitələrinin satın alınmasına şamil edilmir. Eyni zamnda fərmanda nəzərdə tutulmuş müddətdə sənəd qüvvəyə mindiyi günədək bağlanmış müqavilələr üzrə idxal mallarının (işlərinin, xidmətlərinin) satın alınması zərurəti yaranarsa, icra hakimiyyəti orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən həmin malların (işlərin, xidmətlərin) satın alınmasına razılıq verilməsi barədə qərarı Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla İqtisadiyyat (İN) Nazirliyi qəbul edir. Fərmanda həmçinin İN-ə MN ilə birlikdə icra hakimiyyəti orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən idxal mallarının (işlərinin, xidmətlərinin) satın alınmasına xərclənən vəsait barədə üç ayda bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək, bu fərmandan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Milli iqtisadiyyatın perspektivu üzrə Strateji Yol xəritəsinin fiskal siyasətin səmərəliliyinin yüksəldilməsi bölməsində həmçinin qeyd olunur ki, yeni iqtisadi yanaşmada fiskal siyasətin

[8] http://www.president.az/articles/21083

dominantlığını azaltmaqla ötürücülüyün yüksəldilməsi mühüm istiqamətlərdən biridir. Region ölkələri və əsas ticarət tərəfdaşları ilə müqayisədə rəqabətqabiliyyətli qeyri–neft sektorunun şaxələndirilməsi büdcənin vergitutma bazasının da genişləndirilməsini dəstəkləyə bilər. Bu istiqamətdə təxirə salınmadan optimal və rəqabət qabiliyyətli biznes və investisiya imkanlarının genişlənməsinə imkan verən çərçivənin qurulması məsələsinə baxıla bilər. Digər tərəfdən, fiskal idarəetmənin texnokratik çərçivəsinin təkmilləşdirilməsi baxımından kontr-tsiklik fiskal qaydaların tətbiqi, şəffaflıq və hesabatlılığın, dövlət investisiyalarının idarə edilməsinin keyfiyyətinin daha da yüksəldilməsi əsas prioritetlərdəndir.

Konsepsiyanın 4-cü "Yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru" bölməsində qeyd olunur ki, neft və qaz gəlirlərindən istifadə mexanizmi təkmilləşdiriləcəkdir. Karbohidrogenlərin satışından əldə edilən gəlirlərin tədricən həmin vəsaitlərin investisiya olunmasından qazanılan gəlirlə əvəzlənməsi strategiyası həyata keçiriləcək və bu sahədə hazırda aparılan işlər intensivləşdiriləcəkdir. Bu istiqamətdə nəzərdə tutulan işlərin icra vəziyyətinin qiymətləndirilməsi ilə əlaqədar olaraq 25 avqust 2016-cı ildə SBİİF-in icra etdiyi AİTEMP layihəsi çərçivəsində ARDNF-də görüş keçirilmişdir. Görüşün məqsədi Fond tərəfindən 2013-2016-ci illərdə neft və qaz gəlirlərindən istifadə mexanizminin təkmilləşdirilməsi, karbohidrogenlərin satışından əldə edilən gəlirlərin tədricən həmin vəsaitlərin investisiya olunmasından qazanılan gəlirlə əvəzlənməsi strategiyası nəticələrinə dair məlumatları əldə etmək olub.

Görüş zamanı ARDNF-nin nümayəndəsi Fondun həyata keçirdiyi layihələr barədə məlumat verib. O bildirib ki, ARDNF-nin son zamanlar hazırda neft gəlirlərinin neqativ təsirlərinin azaldılması, fiscal qaydaların qəbulunun zəruriliyi, qeyri-neft kəsirinin idarəolunması sahəsində ciddi iş aparır.

ARDNF-nin maliyyələşdirdiyi ayrı-ayrı layihələrinn icrasının təsirlərinin qiymətləndirilməsinə dair təhlillər və araşdırmalar barədə müzakirə aparılıb. Görüşdə həmçinin Cənub Qaz Dəhlizi Layihəsinin (CQDL) maliyyələşdirilməsində ARDNF-nin rolu və eyni zamanda CQDL-in enerji sektorunun rəqabət qabliyyətinin artırılmasında əhəmiyyəti də müzakirə olunub.

Konsepsiyanın 4-cü bölməsində ölkənin tədiyə qabiliyyətinin yaxşılaşdırılmasının və iqtisadiyyatın ixraca yönəldilməsinin ayrıca vacib tələbi kimi, daha çevik məzənnə siyasəti həyata keçirilməsi, xalis beynəlxalq investisiya mövqeyi üzrə profisit qorunması hədəflənib. Bununla yaşaşı, Konsepsiyada iznes mühitinin, rəqabət qanunvericiliyi və siyasətinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi, investorların hüquqlarının qorunması mexanizmləri təkmilləşdirilməsi nəzərdə tutulur. Konsepsiyanın bu bölməsində qeyd olunur ki, qanunların davamlı və ədalətli tətbiqi və hüququn aliliyinin işlək sisteminin formalaşdırılması diqqət mərkəzində saxlanılacaqdır. Eyni zamanda xarici ticarət prosedurlarının sadələşdirilməsi və təkmilləşdirilməsi, beynəlxalq bazarlara çıxışda və xarici bazarlarda rəqabət gücünün artırılmasında sahibkarlara göstərilən dövlət dəstəyinin artırılması istiqamətində tədbirlər həyata keçiriləcəkdir. Kiçik və orta

sahibkarlıq subyektlərinin ixrac qabiliyyətini artırmaq məqsədi ilə təşviqedici tədbirlər həyata keçiriləcək, sahibkarlıq subyektlərinin dövlət tərəfindən güzəştli kreditlərlə təminat səviyyəsi yüksəldiləcək, daxili bazarın haqsız rəqabətdən qorunması üçün beynəlxalq təcrübədə qəbul olunmuş antidempinq və digər qoruyucu tədbirlər həyata keçiriləcəkdir.

Eyni zamanda gömrük və miqrasiya prosedurlarının təkmilləşdirilməsi, həmçinin investorları yerli bazarlara daxil olmaqdan çəkindirən amillərin aradan qaldırılması üçün səylər səfərbər ediləcəkdir. Dünya Ticarət Təşkilatına (DTT) daxil olmaq üçün beynəlxalq ticarət sisteminə uyğun islahatların həyata keçirilməsi, qanunların dünya ticarət sistemində tətbiq edilən praktikaya uyğunlaşdırılması son nəticə olaraq yerli şirkətlərin və bütövlükdə ölkə iqtisadiyyatının inkişafına yeni imkanlar açacaqdır. Bununla yanaşı, vergi dərəcələrinin və məcburi dövlət sosial sığorta haqlarının strukturunun (işəgötürənlər və sığortaolunanlar tərəfindən ödənilən hissələr), həmçinin gömrük rüsumlarının optimallaşdırılması istiqamətində həyata keçiriləcək tədbirlər sahibkarlıq fəaliyyəti üçün əlverişli mühit yaradılmasına kömək edəcəkdir. Ədalətli rəqabət mühitinin formalaşdırılması, iqtisadiyyatda və xüsusilə də istehlak bazarında inhisarlaşmanın məhdudlaşdırılması üzrə tədbirlər davam etdiriləcəkdir. Antiinhisar qanunvericiliyi və praktikası təkmilləşdiriləcək, ticarətdə tətbiq edilən qeyri-tarif əngəllərinin aradan qaldırılması üçün əməli tədbirlər görüləcəkdir. İstehlakçıların hüquqlarının müdafiəsi işi gücləndiriləcək, məhsulların keyfiyyətinə səmərəli nəzarət mexanizmləri yaradılacaq, keyfiyyətə nəzarət üzrə milli standartlar hazırlanacaq və sertifikatlaşdırma sistemi təkmilləşdiriləcəkdir. Sahibkarların ictimai birliklərinin, o cümlədən peşə assosiasiyalarının yaradılması və inkişafı dəstəklənəcək, sahibkarlığın inkişafını əngəlləyən amillərin aşkar edilməsi və aradan qaldırılması məqsədi ilə müntəzəm monitorinqlər aparılacaqdır.

Qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün 16 yanvar 2016-cı ildə Azərbaycan Respublikası Prezidenti "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman[9] imzalamış və həmin fərmanla "İnvestisiya təşviqi sənədinin verilməsi qaydası"nı təsdiq etmişdir. Fərmanın məqsədi investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması və Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 964 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 5.2-ci bəndinə uyğun olaraq investisiyaların təşviqi ilə bağlı mexanizmin və normativ hüquqi aktın hazırlanmasından ibarətdir.

Fərmanla NK-ya investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələrini, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləği və həyata keçiriləcəyi inzibati ərazi vahidlərini müəyyən

[9] http://www.president.az/articles/17534

etmək tapşırılıb. Bununla yanaşı, fərmanda qeyd olunur ki, VN və DGK investisiya təşviqi sənədini almış şəxslərə qanunla nəzərdə tutulmuş güzəştlərin tətbiqi üçün müvafiq tədbirlər görsünlər.

Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"na görə, İnvestisiya təşviqi sənədi aşağıda göstərilən meyarlara tam cavab verən investisiya layihələrini təqdim etmiş sahibkarlara verilir. İnvestisiya təşviqi sənədi VM-də və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir. İnvestisiya təşviqi sənədinin verilməsi üçün meyarlar aşağıdakılardır:

- *İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsi;*
- *İnvestisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ;*
- *İnvestisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri.*

Bundan əlavə, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını təmin etmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğunun artırılması sahəsində əlavə imkanlar yaratmaq məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti 23 sentyabr 2016-cı ildə fərman[10] imzalamışdır. Fərmanda qeyd olunur ki, "ABAD" mərkəzləri vasitəsilə ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara dəstək layihələrinin həyata keçirilməsi, bu layihələrin maliyyələşdirilməsi məqsədi ilə fond yaradılmalı, "ABAD" layihələri üçün ailə təsərrüfatları, kiçik və orta sahibkarlar müəyyənləşdirilməli, təsərrüfat məhsullarının istehsalı üçün müasir texnoloji istehsal avadanlıqlarından istifadə edilməsinə şərait yaradılmalı, ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara biznes planları hazırlanmalı, marketinq, brendinq və dizayn, maliyyə-mühasibat, hüquqi yardım xidmətləri göstərilməli, istehsal olunan məhsulun sertifikatlaşdırılmasının sadələşdirilmiş qaydada "bir pəncərə" prinsipi əsasında təşkil edilməli, istehsal olunan məhsulun daşınmasının və satışının təşkil olunması, istehsal avadanlıqlarından istifadə ilə bağlı təlimlərin keçirilməsi, həmin avadanlıqlara texniki dəstəyin təmin edilməsi, beynəlxalq təcrübə, kənd təsərrüfatı sahəsində istifadə olunan ən qabaqcıl texnoloji yeniliklərlə bağlı məlumatlandırma, layihə çərçivəsində nəzarət və qiymətləndirmə aparılmalı, istehsalyönümlü sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı digər tədbirlər təşkil edilməlidir.

---

[10] http://www.president.az/articles/21160

Konsepsiyada qeyd olunur ki, sənədin əhatə etdiyi dövrdə görüləcək tədbirlər Azərbaycanda maliyyə xidmətləri bazarının əsas seqmentlərinin (bank sektoru, qeyri-bank kredit təşkilatları, sığorta bazarı, lizinq bazarı, qiymətli kağızlar bazarı və faktorinq bazarı) tarazlı inkişafını təmin edəcəkdir. Bank nəzarəti alətləri təkmilləşdiriləcək, bank sisteminin sabit və təhlükəsiz inkişafının təmin olunması üçün müvafiq tədbirlər həyata keçiriləcəkdir. Bank sektorunda konsolidasiya tədbirləri və struktur islahatları davam etdiriləcək, rəqabətin stimullaşdırılması, bank-maliyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, o cümlədən elektron ödəniş sistemləri infrastrukturunun təkmilləşdirilməsi və onun əhatə dairəsinin genişləndirilməsi diqqət mərkəzində saxlanılacaqdır. Bank sisteminin kapitallaşması davam etdiriləcək, regionlar üzrə bank şəbəkəsinin genişlənməsi təşviq olunacaq, tikinti-əmanət banklarının yaradılması dəstəklənəcək, ipoteka kreditləşdirilməsi mexanizmi təkmilləşdiriləcəkdir. Elektron ödəniş, poçt-əmanət sistemləri inkişaf etdiriləcək, bank xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi gücləndiriləcəkdir. Sığorta şirkətlərinin kapitallaşma səviyyəsinin və sığorta məhsullarının çeşidinin artırılması, təkrar sığortanın, həmçinin həyat sığortasının və tibbi sığortanın tətbiqinin genişləndirilməsi ölkədə sığorta bazarının inkişafına yol açacaqdır.

Kənd təsərrüfatı istehsalının sığortalanmasını stimullaşdırmaq məqsədi ilə müvafiq qanunvericiliyin təkmilləşdirilməsi planlaşdırılır. Lizinq xidmətlərinin göstərilməsi üçün qanunvericilik bazasının və institusional mühitin inkişaf etdirilməsi lizinq təşkilatlarının inkişafına və onların bazara daha asan daxil olmasına imkan yaradacaqdır ki, bu da lizinq təşkilatlarının infrastruktur və investisiya layihələrinin icrasında, kənd təsərrüfatının texnika ilə təminatının yaxşılaşdırılmasında mühüm maliyyə mənbəyi kimi lizinqin payını artıracaqdır. Müasir, beynəlxalq standartlara uyğun, iqtisadiyyata geniş kapitalizasiya imkanları təqdim edən və risklərin etibarlı idarə edilməsini təmin edən, yüksək səmərə ilə fəaliyyət göstərən qiymətli kağızlar bazarının formalaşdırılması istiqamətində mühüm addımlar atılacaq, qiymətli kağızlar üzrə qeyri-mütəşəkkil bazarın məhdudlaşdırılması, bazarın investorlar üçün cəlbediciliyinin artırılması məqsədi ilə sistemli tədbirlər həyata keçiriləcək, bazarın peşəkar iştirakçılarının fəaliyyətini və onlara nəzarət mexanizmlərini tənzimləyən qanunvericilik təkmilləşdiriləcəkdir. Qiymətli kağızlar bazarının institusional inkişaf səviyyəsinin yüksəldilməsi və onun beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, ölkə iqtisadiyyatında kapitallaşma dərəcəsinin yüksəldilməsinə nail olunması və iqtisadi layihələrin maliyyələşdirilməsində fond bazarı vasitəsilə cəlb olunan qeyri-inflyasiya mənşəli investisiya vəsaitlərindən istifadənin genişləndirilməsi məqsədi ilə tədbirlər də nəzərdə tutulmuşdur. Eyni zamanda, iqtisadi subyektlərin və əhalinin yığımlarının fond bazarında səmərəli yerləşdirilməsi üçün və ölkənin qiymətli kağızlar bazarının tədricən beynəlxalq kapital bazarlarına inteqrasiya olunması məqsədi ilə müvafiq şərait yaradılması daim diqqət mərkəzində olacaqdır.

Yuxarıda sadalanan tədbirlər daha çox bazar infrastrukturunun inkişafına yönlən fəaliyyətlərin reallaşmasını tələb edir. Konsepsiyanın əhatə etdiyi dövrdə bu istiqamətdə bir sıra

addımlar atılsa da, bu, bütövlükdə sağlam maliyyə, bank, sığorta instututlarının normal fəaliyyəti əsasında makro-maliyyə sabitliyinin təminatı və çevik məzənnə siyasətinin həyata keçirilməsi üçün yetərli olmayıb.

Beləliklə də 2014-cü ildən başlayaraq icra olunan Konsepsiyanın 4.1.-ci "Səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması" altbölməsinin qiymətləndirməsi göstərir ki, iqtisadiyyatın səmərəli dövlət tənzimlənməsi sahəsində əhəmiyyətli addımlar, o sıradan Azərbaycan Respublikası prezidenti tərəfindən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərin" təsdiqi, MSŞ-nin yaradılması, MBNP-nin fəaliyyətə başlaması, ABAD publik hüquqi şəxsin yaradılması haqqında", eləcə də "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanlar imzalansa da, bütün bunlar yetkin bazar iqtisadiyyatına əsaslana iqtisadi modelin qurulmasına gətirib çıxara bilməyib.

Hazırda maliyyə-bank sektorunda resurs çatışmazlığı, büdcənin formalaşdırılmasında yaranan çətinliklərlə yanaşı, onun xərclərinin səmərəliliyinin artırılması istiqamətdində ciddi tədbirlər həyata keçirilməyib. Bankların və sığorta şirkətlərinin kapitallaşması istiqamətində Konsepsiyanın qəbulundan əvvəl başlamış siyasət davamlı xarakter almayıb və beləliklə də maliyyə, bank və sığorta sektoru milli iqtisadiyyatın zəif həlqəsinə çevrilib. Kredit qoyuluşlarının azalması, əmanətlərin banklardan geri çəkilməsi bütövlükdə bank sisteminin rəqabət qabliyyətini aşağı salıb ki, bu da milli iqtisadiyyatın rəqabətliliyinin qorunmasında ciddi çətinliklər yaradıb. DTT-yə üzvlüyün gecikdirilməsi, bəzi idxal mallarına tətbiq olunan idxal rüsumlarının kəskin artırılması ilə daxili bazarın qorunması istiqamətində məqsədli siyasət milli istehlakçıların rəqabətə dözümlülüyünü aşağı salır.

## 2. İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı

2004-cü ildən bəri Azərbaycan iqtisadiyyatında güclü inkişaf meyilləri ilə yanaşı ixracın şaxələnmə səviyyəsinin azalması da müşahidə edilmişdir. Eyni zamanda ixrac məhsullarının çeşidliliyi də aşağı düşmüşdür.17 Belə ki, "The Observatory of Economic Complexity" hesabatına görə 2004-cü ildə Azərbaycan ixracda 56 adda rəqabətqabiliyyətli məhsulla təmsil olunurdusa, 2014-cü ildə cəmi 23 adda rəqabətqabiliyyətli əmtəəsi ilə "ixracın çoxşaxəliliyi" indeksinə görə dünyada 108-ci yerdə olmuşdur. Azərbaycanın ticarət tərəfdaşları olan Gürcüstan 106 adda rəqabətqabiliyyətli əmtəə ixracı ilə dünya üzrə 66-cı yerdə, Türkiyə isə 380 adda müvafiq əmtəə ilə dünyada 51-ci yerdə qərarlaşmışdır. 2014-cü il üzrə "The Observatory of Economic Complexity" hesabatına görə, Azərbaycan ixracın həcminə görə dünyada 144 ölkə arasında 70-ci yerdə qərarlaşmışdır.

Strateji Yol Xəritəsində qeyd olunur ki, gələcəkdə idxaldan asılılığı minimuma endirmək və yerli məhsullarla özünü təminetmə səviyyəsini daha da yüksəltmək məqsədilə rəqabətqabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının təşviqi sahəsində Azərbaycan hökuməti qanunvericilik

bazasında bir sıra mühüm dəyişiklik həyata keçirib. “Qeyri–neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli 1713 nömrəli Sərəncamı və “Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” 1 mart 2016-cı il tarixli 811 nömrəli Fərmanı ölkənin ixracının şaxələndirilməsi və rəqabət qabiliyyətinin yüksəldilməsinə təkan verəcəkdir.

Konsepsiyanın 4-cü bölməsinin ikinci alt bölməsi “İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı” adlanır. Bu bölmədə qeyd olunur ki, Konsepsiyanın əhatə etdiyi dövr ərzində neft-qaz hasilatı, nəqli və emalı sistemlərinin inşası, yenidən qurulması və modernləşdirilməsi nəzərdə tutulur. “Şahdəniz-2” layihəsinin gerçəkləşdirilməsi və Trans-Anadolu qaz kəmərinin (TANAP) çəkilişi yaxın gələcəkdə Avropanın qazla təminatında Azərbaycanın statusunu daha da yüksəldəcəkdir.

İqtisadiyyatın klasterlər əsasında inkişafı çərçivəsində neft, qaz emalı və neftkimya zavodlarından ibarət kompleksin inşası planlaşdırılır. Kompleksin təşkili zəruri investisiyaların cəlb edilməsinə, ekoloji normativlərə riayət olunmasına, son məhsulun istehsalına qədər olan texnoloji zəncirin qurulmasına, hazır məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsinə, bu sahədə ixracın həcminin və çeşidinin genişlənməsinə imkan yaradacaqdır. Bununla bərabər, ARDNŞ-nin investisiya fəallığı daha da artırılacaq, onun şaxələndirilməsi istiqamətində zəruri addımlar atılacaq, o cümlədən xarici ölkələrdə sərmayə qoyuluşlarına mühüm yer ayrılacaqdır. Bu isə ölkənin enerji siyasətində etibarlılıq amilinin rolunun artırılmasına və dünya enerji bazarları ilə inteqrasiya əlaqələrinin gücləndirilməsinə xidmət edəcəkdir.

Hazırda TANAP layihəsi üzrə tikinti işləri fasiləsiz davam etdirilir. Layihə çərçivəsində boru kəmərinin 56 düymlük hissəsinin keçəcəyi ərazilərdə torpaqlar düzləşdirilir, təxminən 10 ton ağırlığı və 12 metr uzunluğu olan polad borular sahələrə daşınır. Həmçinin, boruların saxlanıldığı yerlərdə qaynaq işləri aparılır. Əgər layihənin maliyyələşdirilməsində çətinliklər ortalığa çıxmazsa, bu layihə Konsepsyanın başa çatdığı 2020-ci ildən başlayaraq tam gücü ilə fəaliyyətə başlayacaq.

ARDNŞ-yə gəlincə, o Avropa, Çənub-Şərqi Asiyada irimiqyaslı layihələr həyata keçirir. Mərkəzi qərarğahı Cenevrədə yerləşən “SOCAR Trading” şirkəti öz hasilatını xarici bazarlarda artıran “Azeri Light” markalı yüngül neftin dünya üzrə ən iri təchizatçısıdır. Hazırda şirkətin İstanbul, Dubay, Sinqapur, London və Monakoda nümayəndəlikləri var. Bununla yanaşı, ARDNŞ, xüsusilə də, Türkiyə və Gürcüstanda neft-qaz və neft-kimya infrastrukturuna ən çox sərmayələr yatıran şirkət kimi hər iki ölkənin strateji əhəmiyyət kəsb edən sektorlarında öncüllüyünü saxlayır.

Strateji Yol Xəritəsində qeyd olunur ki, Azərbaycanın regional qovşaq kimi mövqeyinin gücləndirilməsi üçün səmərəli infrastruktura yüksək səviyyədə investisiya qoyuluşu davam etdiriləcəkdir. 2025-ci ildə Azərbaycan iqtisadiyyatı ölkənin dəmir yollarının Gürcüstan, Türkiyə və İranın dəmiryol şəbəkəsi ilə Bakı–Tbilisi–Qars və Astara–Astara dəmiryol layihələri vasitəsilə birləşdirilməsindən, həmçinin Xəzər hövzəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının

tikintisindən bəhrələnəcəkdir. Azərbaycanın şaxələndirilmiş nəqliyyat–logistika imkanları ölkədən ixracın artması üçün zəmin olacaq, bütövlükdə isə biznes xərclərinə qənaət edilməsinə gətirib çıxaracaqdır. Bundan əlavə, təkmilləşdirilmiş nəqliyyat infrastrukturu Azərbaycanın bütün bölgələrinin daha yaxşı inteqrasiyasına şərait yaratmaqla, regionlarda biznesin inkişafına əlavə təkan verəcəkdir.

Konsepsiyada qeyd olunur ki, qeyri-neft sənayesinin inkişaf etdirilməsi məqsədi ilə ölkənin malik olduğu təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi genişləndiriləcək və onlardan istifadənin səmərəliliyi yüksəldiləcəkdir. Konsepsiyanın əhatə etdiyi dövr ərzində alternativ (bərpa olunan) enerji mənbələrindən istifadənin sürətləndirilməsi məqsədi ilə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi, institusional mühitin inkişaf etdirilməsi, elmi-texniki potensialın gücləndirilməsi, mütəxəssis hazırlığının davam etdirilməsi və enerji istehlakçılarının maarifləndirilməsi istiqamətində işlərin aparılması planlaşdırılır. Bu sahədə dövlət tərəfindən həyata keçirilən layihələrlə yanaşı, özəl sektorun da bu prosesdə yaxından iştirakı təşviq ediləcək, alternativ enerji tariflərinin çevik tənzimlənməsi təmin ediləcəkdir.

2015-ci ildə Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji və ondan səmərəli istifadə olunması sahəsində görülmüş işlər barədə Dövlət Agentliyinin hesabatında[11] qeyd olunur ki, Dövlət Agentliyi qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi məqsədilə hesabat ili ərzində Bakı şəhərinin Suraxanı, Pirallahı, Qaradağ rayonlarında, Sumqayıt şəhərində, Samux, Qobustan, Siyəzən, Ağcabədi, Şəki, Balakən, Abşeron, Xızı, Oğuz, Gədəbəy, Neftçala, Cəlilabad, Biləsuvar, Masallı rayonlarında və Naxçıvan Muxtar Respublikasında ABOEM hesabına yeni istilik və elektrik enerjisi güclərinin yaradılması, habelə bərpa olunan enerji növü kimi üzvi maddələrdən və tullantılardan yeni enerji məhsullarının əldə olunması istiqamətində layihələrin icrasını davam etdirib. Belə ki, dövlət investisiya proqramında nəzərdə tutulmuş layihələr üzrə - ötən ilin ikinci yarısında istismara verilmiş 1,4 MVt-lıq Suraxanı və 1,1 MVt-lıq Pirallahı günəş elektrik stansiyalarının (GES) layihə gücünə (2,8 MVt) çatdırılması istiqamətində, Samux rayonunda, Sumqayıt şəhərində, Bakı şəhər Qaradağ rayonunun Səngəçal və Sahil qəsəbələrində ümumi gücü 17,4 MVt olan günəş elektrik stansiyalarının, Şəki, Siyəzən və Cəlilabad rayonlarında alternativ enerji ilə təmin olunan idman zallarının tikintisi üzrə işlər davam etdirilib. Həmçinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16.12.2009- cu il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş "Avropa Komissiyasının Azərbaycan Respublikasına Energetika Sahəsində İslahatlara Dəstək Proqramı (ESİDP) çərçivəsində Sahil qəsəbəsində 1,2 MVt-lıq avtomatik idarə olunan günəş elektrik stansiyasının pilot layihəsinin həyata keçirilməsi istiqamətində işlər aparılıb. Pirallahı rayonunun enerjiyə olan tələbatının ABOEM hesabına ödənilməsi layihəsi çərçivəsində hibrid elektrik stansiyasının (HES) quraşdırılması üzrə araşdırmalar başa çatdırılmış və seçilmiş ərazilər üzrə ümumi gücü 10 MVt olan günəş elektrik stansiyasının

[11] http://area.gov.az/public/uploads/Hesabat/Hesabat-2015.pdf

(Pirallahı GES-2,8 MVt, Çilov adası GES-1,2 MVt və rayonun inzibati, sosial və sənaye obyektlərinin üzərində-6,0 MVt), tullantı qazlardan istifadə olunmaqla 2,0 MVt-lıq istilik elektrik stansiyasının tikintisi nəzərdə tutulub. 2 Qaradağ rayonunun Sahil qəsəbəsində 2,8 MVt-lıq və 1,2 MVt-lıq, Səngəçal qəsəbəsində isə 9,0 MVt-lıq günəş elektrik stansiyalarının tikinti-quraşdırma işləri davam etdirilib. Layihələr üzrə 2993 ədəd günəş panelləri və 126 metr uzunluqda istinad divarları quraşdırılıb. Sumqayıt şəhərində layihə gücü 2,8 MVt olan GES-də 8800 ədəd günəş paneli quraşdırılmaqla stansiyanın gücü 2,2 MVt-a çatdırılmışdır. Stansiyada dispetçer, invertor, aşağı və yüksək gərginlikli avadanlıq və transformator otaqları tikilib. Samux rayonunda inşa olunan Aqroenerji Yaşayış Kompleksində (AEYK) quraşdırılan günəş panellərinin sayı 7860-a çatdırılmış və onun 6000-i və ya 1.5 MVt-ı enerjisistemə qoşulmuşdur. Kompleksdə inşa olunan 3 mərtəbəli idarəetmə mərkəzi və dispetçer xidmətinin binasının tikintisi başa çatdırılmış, binanın havalandırılması üçün 272 kVt-lıq çiller qurğusu və qazanxana quraşdırılmış, həmçinin obyektdə ümumi uzunluğu 7080 metr olan kabelləşdirilmə işləri görülüb. Qobustan HES-də istehsal olunan elektrik enerjisinin müasir İKT texnologiyalarından istifadə etməklə istehlakçılara itkisiz çatdırılması və səmərəli şəkildə paylanması məqsədi ilə quraşdırılan "ağıllı şəbəkə" layihəsi üzrə 1 ədəd 630 kVA güclü yarımstansiya quraşdırılıb.

Konsepiyann bu altbölməsində qeyd olunr ki, onun tətbiqi dövründə qeyri-neft sənayesinin ənənəvi istehsal sahələrinin (kimya sənayesi, metallurgiya, maşınqayırma, elektrotexnika, elektronika, yüngül sənaye, yeyinti sənayesi və s.) inkişaf etdirilməsi və ixrac imkanlarının artırılması ilə yanaşı, rəqabətqabiliyyətli yeni istehsal sahələrinin yaradılması da dəstəklənəcəkdir. Ölkənin qeyri-neft sektoruna yerli və xarici investisiyaların cəlb edilməsinin intensivləşdirilməsi məqsədi ilə stimullaşdırıcı mexanizmlər tətbiq ediləcək, ixrac yönümlü qeyri-neft sektorunun inkişafı məqsədilə dövlət və özəl sektorun investisiya əməkdaşlığı inkişaf etdiriləcəkdir.

Qarşıya qoyulan vəzifələrin həlli məqsədilə 18 yanvar 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam[12] imzalayıb. Sərəncamda qeyd olunur ki, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında ixrac yönümlü iqtisadi model əsas götürülərək yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyata transformasiya mühüm məqsəd kimi müəyyən olunmuşdur. Bu çərçivədə əsas vəzifələrdən biri qeyri-neft sektorunun yüksək inkişaf tempini qoruyub saxlamaqla onun ixrac imkanlarını genişləndirməkdir. Odur ki, bu sərəncamla qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, rəqabət qabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılması, bu sahədə əlverişli şəraitin daha da genişləndirilməsi məqsədi ilə NK-ya tapşırılıb ki, kənd təsərrüfatı və emalı məhsullarına ixracla bağlı geri ödəmə dəstəklərinin verilməsi mexanizmi, xarici ölkələrə ixrac missiyalarının təşkil edilməsinə, xarici bazarların

[12] http://www.president.az/articles/17535

araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınmasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsi və ödənilmə mexanizmini işləyib hazırlasın. Bununla yanaşı, İN-ə potensial ixrac bazarları ölkələrində logistika mərkəzlərinin yaradılması və ixrac məlumat bazasının (elektron portal) formalaşdırılmasını təmin etmək tapşırılıb.

"Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamın icrası prosesini sürətlərndirmək üçün Azərbaycan Respblikasının prezidenti 5 oktyabr 2016-cı il tarixində imzaladığı Fərmanla "Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydasını təsdiq edib. Bundan əlavə, Sərəncamın icrası prosesində müntəzəm məlumatlandırmanı həyata keçirmək üçün Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli Fərmanı ilə Azərbaycan mənşəli qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı görülmüş işlər barədə Hesabatın forması təsdiq edilib. Hesabatda qeyri-neft sektoru üzrə ixrac edilmiş Azərbaycan mənşəli məhsulların dəyəri MDB ölkələri, Avropa İttifaqı ölkələr və digər ölkələr üzrə dəyəri, İxrac təşviqi şamil olunan ixrac edilmiş Azərbaycan mənşəli məhsulların dəyəri, Azərbaycan mənşəli qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı dövlət büdcəsinin vəsaiti hesabına ödənilən xərclər, Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına ixracyönümlü istehsala verilən güzəştli kreditlər, Azərbaycan mənşəli ixracyönümlü məhsul və xidmətlərin xarici bazarlarda təşviqi məqsədi ilə müvafiq beynəlxalq tədbirlərdə ölkə ixracatçılarının iştirakının təmin edilməsi, habelə ixrac üçün potensial və perspektivli sayılan ölkələrdə həyata keçirilmiş (iştirak edilmiş) müvafiq sərgilər, forumlar və digər təşviqat tədbirləri, qeyri-neft sektoru üzrə Azərbaycan mənşəli məhsulların ixrac olunduğu ölkələrin və qeyri-neft sektoru üzrə ixrac olunmuş Azərbaycan mənşəli məhsul çeşidlərinin sayı əksini tapıb.

Konsepsiya çərçivəsində turizm infrastrukturunun inkişaf etdirilməsi, beynəlxalq standartlara cavab verən turizm xidmət sahələrinin dairəsinin genişləndirilməsi, bu sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi və ÜDM-də xüsusi çəkisinin artırılması istiqamətində tədbirlər nəzərdə tutulur. Turizmin inkişaf etdirilməsi məqsədi ilə bu sahəyə dair qanunvericilik və standartlar təkmilləşdiriləcək, Xəzər dənizinin turizm potensialından tam şəkildə istifadə edilməsi üçün zəruri tədbirlər görüləcək, bölgələrdə turizm fəaliyyəti stimullaşdırılacaq, informasiyatəbliğat işi gücləndiriləcək, milli, tarixi-mədəni, sosial-iqtisadi və təbii xüsusiyyətlər nəzərə alınmaqla turizmin müxtəlif növləri müvafiq turizm marşrutları yaradılmaqla təşviq ediləcəkdir.

Ölkədə turizm infrastrukturunun inkişaf etdirilməsi və beynəlxalq standartlara cavab verən turizm xidmətlərinin formalaşdırılması bu sahənin qanunvericilik bazasının və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsini, mövcud turizm potensialından istifadə imkanlarının genişləndirilməsini, regionlarda turizm fəaliyyətinin stimullaşdırılmasını, yeni turizm marşrutlarının yaradılmasını, habelə rəqabətədavamlı qiymət təklifinin təmin edilməsini zəruri edir. Odur ki, 01 sentyabr 2016-cı ildə Azərbaycan Respublikası Prezidenti "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam[13] imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ndən biri kimi ixtisaslaşmış turizm və əyləncə müəyyən edilib, beynəlxalq və yerli ekspertlərlə birlikdə dünya təcrübəsində turizm sahəsində islahatların ən uğurlu modelləri və onların ölkəmizdə tətbiqi imkanları təhlil edilib. Aparılmış təhlillər nəticəsində turizm sahəsi üzrə strateji yol xəritəsinin ilkin layihəsi hazırlanıb.

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ndən irəli gələn vəzifələrin icrası, Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sənayesinin formalaşdırılması və onun ölkə iqtisadiyyatındakı xüsusi çəkisinin daha da artırılması, bu sahədə koordinasiya olunmuş siyasətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Turizm Şurası (TŞ) yaradılması qərara alınıb. Qeyd olunub ki, TŞ-nin əsas məqsədi Azərbaycan Respublikasında turizm sahəsində mövcud vəziyyəti təhlil etməkdən, bu sahədə olan problemlərin aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsindən, turizm sahəsində dövlət orqanlarına həvalə edilmiş vəzifələrin icrasının əlaqələndirilməsindən ibarətdir. NK-ya tapşırılıb ki, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi (MTN) ilə birlikdə qabaqcıl beynəlxalq təcrübə əsasında, turizm sahəsində dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, ölkənin turizm potensialından istifadə imkanlarının artırılması, regionlarda turizm fəaliyyətinin stimullaşdırılması, milli, tarixi-mədəni, sosial-iqtisadi və təbii xüsusiyyətlər nəzərə alınmaqla turizmin müxtəlif növlərinin müvafiq turizm marşrutları yaradılmaqla təşviq edilməsi, turizm xidmətlərinin keyfiyyətinin artırılması, turizmin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə dair təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin. Sərəncamda qeyd olunur ki, 2017-ci il və növbəti illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsinin layihəsində MTN-nin müraciəti əsasında ticarət festivallarının ("shopping festival") keçirilməsi ilə bağlı tələb olunan vəsaitin nəzərdə tutulmasını təmin edilsin. Həmçinin, nazirliyin təklifləri əsasında Xızı-Xaçmaz, Quba və Qusar turizm və rekreasiya zonalarının 2016–2017-ci illər üzrə fəaliyyət planını hazırlayıb təsdiq edilsin və zəruri maliyyələşməni təmin olunsun.

---

[13] http://mct.gov.az/news-details?id=2432

Bununla yanaşı İN MN, MTN, Dövlət Mülki Aviasiya Administrasiyası (DMAA) və AzAL-la birlikdə ölkəyə turistləri cəlb etmək məqsədilə əlverişli yeni beynəlxalq uçuşların (reyslərin) təşkili ilə bağlı tədbirlər həyata keçirməli, MTN və Təhsil Nazirliyi (TN) ilə birlikdə turizm və rekreasiya zonalarında Azərbaycan Turizm və Menecment Universitetinin nəzdində turizm üzrə ilk peşə-ixtisas təhsili müəssisələrinin (peşə məktəbləri və peşə liseyləri) yaradılması və bu məqsədlə müvafiq torpaq sahəsinin və əmlakın ayrılması ilə bağlı işlər aparmalıdır.

Bundan əlavə, İN, MN, VN və DGK ilə birlikdə turizm və rekreasiya zonalarında vergi və gömrük güzəştlərinin və imtiyazlarının verilməsi ilə bağlı təkliflərin hazırlanması da qarşıya həlli vacib vəzifə kimi qoyulub.

Bu istiqamətdə gedən müzakirələrin nəticəsi olaraq 6 dekabr 2016-cı ildə Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi təsdiq olunub.

Dünya Səyahət və Turizm Şurasının məlumatına əsasən, Azərbaycanda turizm sektoru ÜDM-in 2,8%-ni və məşğulluğun isə 2,6%-ni təmin edir. Azərbaycanın böyük turizm resurslarının olması bu sahənin inkişaf potensialını göstərir. Son illərdə neft gəlirlərindən asılılığın azaldılması məqsədilə qeyri-neft sektorunun rəqabət qabiliyyətli, iqtisadi səmərəli və innovasiya əsaslı prioritet sahələrindən olan turizm sənayesində məqsədyönlü şəkildə təbdirlərin həyata keçirilməsini zəruri edir.

Nəhayət, konsepsiyanın bu altbölməsində qeyd olunur ki, qeyri-neft sənayesinin inkişafı və ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri kimi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalına xüsusi diqqət yetiriləcək, müasir texnologiyaların tətbiqi yolu ilə mövcud aqroemal müəssisələrinin istehsal gücünün artırılması və yeni belə müəssisələrin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçiriləcəkdir. Aqrar sektorun intensiv və səmərəli inkişafının stimullaşdırılması üçün dövlət dəstəyi tədbirləri beynəlxalq təcrübəyə uyğun olaraq davam etdiriləcəkdir. Özəl bankları və kredit təşkilatlarını bu sektora vəsait (kredit) ayırmağa daha da təşviq edən bir mühit yaratmaq üçün əlavə tədbirlər görüləcək, kənd təsərrüfatının sığortalanması mexanizmi təkmilləşdiriləcəkdir. Nəticədə kənd təsərrüfatında məhsuldarlıq artacaq və kənd əhalisi qabaqcıl beynəlxalq təcrübə ilə daha yaxından tanış olacaqdır.

Konsepsiya qüvvəyə minəndən çox keçməmiş, 16 yanvar 2014-cü ildə Azərbaycan Respublikası Prezidenti "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncam[14] imzalayıb. Bu sərəncamla qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişafı dövlət tərəfindən iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilib.

Sərəncamda qeyd olunur ki, dövlət fermerlər üçün bir sıra güzəştlər müəyyən etmişdir. Kənd təsərrüfatı məhsulları istehsalçıları, torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilmişlər. Əkin sahəsinin becərilməsində istifadə olunan yanacaq və motor yağlarına görə istehsalçılara hər

[14] http://www.president.az/articles/10812

hektar üçün 40 manat, buğda və çəltik istehsalçılarına isə hər hektar səpilmiş sahəyə görə əlavə olaraq 40 manat subsidiya verilir. Fermer və sahibkarlar güzəştli şərtlərlə kredit, toxum, gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına malikdirlər.

Hazırda yüksək məhsuldarlığın təmin edilməsi, yerli məhsulların rəqabət qabiliyyətinin artırılması, kənd təsərrüfatının gəlirli sahələrinin inkişaf etdirilməsi, fermerlərə dövlət dəstəyinin daha səmərəli təşkili və ərzaq təhlükəsizliyinə nail olunması aqrar sahədə dövlət siyasətinin mühüm istiqamətləri olaraq nəzərdə tutulur.

Bununla belə, məhsulun istehsalçıdan istehlakçıya çatdırılması mərhələsində mövcud maneələrin aradan qaldırılması, ərzaq bazarında süni qiymət artımının qarşısının alınması, kənd təsərrüfatı və ərzaq məhsullarının qəbulu üzrə ixtisaslaşmış terminalların və onların saxlanılması üçün anbarların yaradılması, həmin məhsulların daşınmasına xidmət edən nəqliyyat infrastrukturunun təşkili, xüsusi ərzaq mağazaları şəbəkəsinin genişləndirilməsi istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsinə ehtiyac vardır.

Sərəncamda Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə (KTN) tapşırılıb ki, aqrar siyasətin əsas prinsiplərini, kənd təsərrüfatının inkişafında strateji hədəfləri və prioritet istiqamətləri özündə əks etdirən “Azərbaycan Respublikasında aqrar-sənaye kompleksinin inkişafı strategiyası”nın layihəsini üç ay müddətində, eləcə də həmin müddətdə kənd təsərrüfatında kooperasiyanın inkişaf etdirilməsinə dair təkliflərini hazırlasın. Bununla yanaşı, KTN qarşısında yerli icra hakimiyyəti orqanları ilə birlikdə Bakı şəhərində keçirilən kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının daha səmərəli təşkili, onların fəaliyyətinə normal şəraitin yaradılması, əhali və fermerlər üçün əlverişli ticarət mühitinin formalaşdırılması, yarmarkalarda sui-istifadə hallarının aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görsün, kənd təsərrüfatı məhsulları istehsalçılarının topdan və pərakəndə satış bazarlarına çıxış imkanlarının genişləndirilməsi məqsədi ilə şəhərlərdə və rayon mərkəzlərində yarmarkaların təşkilinn təmin edilməsi də vəzifə kimi qoyulub.

İN-ə isə fermerlərə informasiya-məsləhət xidmətinin səmərəli təşkili sahəsində müvafiq tədbirlər görməsi, qaynar xəttin yaradılmasının təmin edilməsi DGK ilə birlikdə kənd təsərrüfatı və ərzaq məhsulları ixracının artırılmasına və bu sahədə prosedurların sadələşdirilməsinə dair təkliflərinin hazırlanması tapşırılıb.

Sərəncamda qeyd olunur ki, KTN və yerli icra hakimiyyəti orqanları ilə birlikdə Bakı şəhərinin rayonlarında və iri şəhərlərdə daimi fəaliyyət göstərən ixtisaslaşdırılmış “fermer mağazaları” və “yaşıl marketlər” şəbəkəsinin yaradılmasının dəstəklənməsinə dair təkliflərini hazırlasınlar, eyni zamanda kənd təsərrüfatı və ərzaq məhsulları bazarında, tədarük prosesində haqsız rəqabət meyillərinin qarşısının alınması ilə bağlı tədbirləri və antiinhisar nəzarətini gücləndirsinlər.
Azərbaycan Respublikasında aqrar-sənaye kompleksinin inkişafı strategiyası”nın layihəsi nazirlik tərəfindən hazırlanıb, Prezident Adminstrasiyasına təqdim olunsa da Strategiya hələ indiyə qədər qəbul olunmayıb.

Bundan başqa, kənd təsərrüfatı məhsullarının istehsalını və (və ya) emalını stimullaşdırmaq, kənd təsərrüfatı məhsulları istehsalçılarının inkişafını təmin etmək, ərzaq məhsullarının keyfiyyətini daha da artırmaq, dövlət vəsaitlərindən səmərəli istifadəni təmin etmək, regionlarda kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası prezidentinin 11 aprel 2016-cı il tarixli sərəncamı ilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Ərzaq məhsullarının tədarükü və təchizati" Açıq Səhmdar Cəmiyyəti yaradılıb.[15] 30 sentyabr 2016-cı ildə Azərbaycan Respublikası Prezidenti "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman[16] imzalayıb və bu qurumun fəaliyyətinin təşkili üçün Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 10 000 000 (on milyon) manat ayrılıb. Elə həmin gün Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 30 sentyabr tarixli Fərmanı ilə "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin nizamnaməsi[17] təsdiq edilib.

Ərzaq təhlükəsizliyinin təmin edilməsinə gəlincə, bu sahədə tədbirlərin sistemli və kompleks şəkildə həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli 3004 nömrəli Sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" təsdiq edilib. Dövlət Proqramının ötən il başa çatmasına baxmayaraq onun davamına dair növbəti proqram hələ də imzalanmayıb.

Göründüyü kimi, Konsepsiyanın 4-cü bölməsinin ikinci "İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı" alt bölməsinin hədəflərinə çatmaq istiqamətində əsas diqqət konseptual bazanın formalaşdırılmasına yönəldilib. Bu bölmədə daha çox iş neft-qaz məhsullarının nəqli ilə bağlı infrastruktur layihələrinin reallaşdırılması istiqamətində, eləcə də alternativ və bərpa olunan enerji və ondan səmərəli istifadə olunması sahəsində görülüb. Bundan başqa xüsusilə də 2016-cı ildə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ndən biri olan ixtisaslaşmış turizm və əyləncə sektorunun inkişafı, qeyri-neft ixracatın stimullaşdırılması sahəsində əlavə tədbirlərə həsr olunmuş fərmanların imzalanması dövlət orqanları qarşısında xeyli vəzifələr qoysa da onların bir çoxu hələ də icra olunmamış qalır.

Konsepsiyada qeyri-neft sektorunun 2 əsas bölməsinə turuzmə və kənd təsərrüfatına geniş yer ayrılır. Onların hər ikisi "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ndə prioritet sahələr hesab olunub. Lakin, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" qəbul edilənədək verilmiş fərman və sərəncamlar arasında sistemli əlaqələndirmə də görünmür. Məsələn,

[15] http://president.az/articles/19227
[16] http://www.president.az/articles/21239
[17] http://www.president.az/articles/21240

“Ərzaq məhsullarının tədarükü və təchizati” Açıq Səhmdar Cəmiyyətinin dövlətin təşəbbüsü ilə yaradılması və onun fəaliyyətinin KTN nəzdində təşkil olunması, aqrar sahədə dövlət siyasətini həyata keçirən KTN-nın kommersiya fəaliyyətinə cəlb edilməsinə gətirib çıxarır ki, bu da yetkin bazaar sisteminin əsasında iqtisadi modelin qurulması dəyərlərinə ziddir. Bununla yanaşı, Turim Şurasının formalaşdırılması əvvəli dövlət tənzimlənməsi sisteminin bərpası kimi qiymətləndirilə bilər və bu eyni zamanda TMN funksiyalarının təkrarlanmasına yol açır. Bu halda Konsepsiyanın qarşısında duran səmərəli dövlət tənzimlənməsi kimi hədəflərdən uzaqlaşırıq.

Bu altbölmənin yekun qiymətləndirməsi olaraq bildirmək istərdim ki, bu ildən qarşıya qoyulan hədəflərə çatmaq üçün çoxsaylı təşəbbüslər olsa da və onun çərçivəsində yeni instututlar yaradılsa da onların təsir və nəticələrini dəyərləndirmək üçün müəyyən müddət gözləmək tələb olunur. Çünki, hazırda onlar institutsionallaşma ərəfəsindədirlər.

## 3. Elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi

Konsepsiyanın 4-cü bölməsinin üçüncü altbölməsində qeyd olunur ki, uzunmüddətli davamlı iqtisadi inkişafı təmin etmək, “bilik iqtisadiyyatı”nı formalaşdırmaq, elmtutumlu texnologiya, məhsul (işlər, xidmətlər) yaradılmasını sürətləndirmək məqsədi ilə innovasiya fəaliyyətinin genişləndirilməsi əsas istiqamətlərdən birini təşkil edəcəkdir. Bununla əlaqədar olaraq, elmin inkişafı yerli xüsusiyyətlər və qlobal meyllər nəzərə alınmaqla prioritetləşdiriləcək və mütərəqqi dünya elminə səmərəli inteqrasiya prosesi davam etdiriləcəkdir. Elmi infrastruktur təkmilləşdiriləcək, elmin maddi-texniki bazası müasirləşdiriləcək və bu sahədə informasiya təminatı sistemlərinin elektron formaya keçirilməsi təmin ediləcəkdir.

Eyni zamanda, elmin maliyyələşdirilməsinə dövlət büdcəsi resursları ilə yanaşı, digər mənbələrin də cəlb olunması stimullaşdırılacaq ki, bu da, son nəticədə, elmi fəaliyyətlə məşğul olan işçilərin, o cümlədən gənclərin sosial müdafiəsini gücləndirəcək və “beyin axını”nın qarşısını alacaqdır. Ölkədə innovativ iqtisadiyyatın yaradılması məqsədi ilə elm və istehsal arasındakı əlaqələr gücləndiriləcək, tətbiqi elmi araşdırmaların bazarın tələbatına müvafiq aparılması üçün zəruri mexanizmlər yaradılacaqdır.

İnnovasiya fəallığının yüksəldilməsi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalının stimullaşdırılması, innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri mexanizmlərin qurulması, innovasiya potensialının səmərəli istifadəsi və inkişafının təmin edilməsi məqsədi ilə dövlət dəstəyi tədbirləri reallaşdırılacaq və müvafiq qanunvericilik bazası yaradılacaqdır. İnnovativ sahibkarlığın inkişaf etdirilməsi və yeni fəaliyyət növlərinin və məhsullarının inkişafı üçün əlverişli mühit yaradılması ilə yanaşı, qabaqcıl texnologiyaların transferi və mənimsənilməsi istiqamətində tədbirlərin gücləndirilməsi, elmtutumlu məhsulların və texnologiyaların işlənilməsi və tətbiqi üçün

texnoparklar və innovasiya zonaları yaradılması da nəzərdə tutulur. Bu baxımdan, müvafiq normativ hüquqi baza hazırlanaraq qəbul ediləcək, innovativ sahibkarlığın və biliklərə əsaslanan iqtisadiyyatın inkişafını təmin etməkdən ötrü İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun fəaliyyətinin təşkili nəzərdə tutulur.

İqtisadi məqsəd və resurslar, bilik və mədəniyyət sahəsinin vəzifələri ilə informasiya texnologiyalarının inkişafı arasındakı əlaqələrin müəyyənləşdirilməsi uzunmüddətli dövr üçün əqli mülkiyyətə dair Milli Strategiyada və ondan irəli gələn Dövlət Proqramında əksini tapan innovasiya potensialının inkişafına kömək edəcəkdir. Qabaqcıl dünya təcrübəsindən istifadə etməklə Azərbaycanda informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq yeni bilik və texnologiyaların istifadəsini, mənimsənilməsini və yayılmasını təmin edən milli innovasiya sisteminin formalaşdırılması prosesi qarşıdakı illərdə tamamlanacaqdır.

Bu sahədə diqqətəlayiq fəaliyyətlərdən biri "bilik iqtisadiyatı" kadr bazasını təşkil edən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın icrası olub. TN-in verdiyi məlumata görə, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 1335 təqaüdçü xaricdə təhsillərini başa vuraraq məzun olub.Təhsilini başa vurmuş təqaüdçülərin 95 %-i öz ixtisas istiqamətində, 5 %-i isə başqa sahələrdə fəaliyyətini davam etdirir. Onların 60 %-i özəl sektorda, 40 %-i isə dövlət sektorunda çalışır. Eyni zamanda məzunlar sırasında çalışmayan, həqiqi hərbi xidmətdə olan və s. səbəbdən əmək fəaliyyəti ilə məşğul olmayanların faizi isə 20-dir. Dövlət Proqramı çərçivəsində təhsilini başa vurmuş təqaüdçülər sırasında təhsillərini xaricdə növbəti səviyyədə davam etdirənlər də var. Onların 45 %-i təhsilini yenidən Dövlət Proqramı çərçivəsində, 55 %-i isə şəxsi vəsaiti hesabına təhsilini xaricdə davam etdirir. Konsepsiyanın 4-cü istiqaməti üzrə iqtisadiyyatın kadr potensialının təminatında, "bilik iqtisadiyyat"ının formalaşmasında "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"n əhəmiyyəti müzakirə olundu və qeyd edildi ki, iqtisadiyyatın rəqabət qabliyyətiin artırılmasına bu proqramın töhfəsi çoxdur.

Bu bölmənin yekunu olaraq qeyd etmək istərdim ki, qarşıya qoyulan həfədlərə çatmaqda, xüsusilə də elmi potensialın artırılmasına "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın əhəmiyyətli rolu olub. Lakin, proqramın icra müddətinin başa çatması, ikinci dövlət proqramına start verilməməsi by sahədə müsbət dəyişikliklərin səviyyəsinə azaldıcı təsir göstərəcək. Bununla yanaşı, dövlət büdcəsinin elm xərclərinin dinamikasında müşahidə olunan neqativ tendensiya da elmi potensialın artırılması hədəflərində uzaqlaşmağa xidmət edəcək. Belə ki, 2017-ci ilin büdcəsində elm xərcləri bu illər müqayisədə 9,9 milyon manat və ya 7,3 faiz az proqnozlaşdırılıb.

İnnovasiya siyasətinin dəstəklənməsinə gəlincə, ona təsir göstərən başlıca amil ölkə iqtisadiyyatına investisiya qoyuluşudur. Baxmayaraq ki, bu ilin 8 ayında bütün mənbələrdən Əsas kapitala yönəldilmiş vəsaitlər 31,3 faiz azalıb, eyni zamanda büdcədən əsaslı kapital qoyuluşuna

ayırmalar  növbəti ildə bu ilə nisbətən 38 faiz az proqnozlaşdırılıb.  Xarici investisiyaların cəlb edilməsində də neqativ tendensiyanın müşahidə olunması ölkəyə qabaqcıl texnika və texnologiyaların, müasir  patentlərin  və nou-hauların gətirilməsinin azalmasını şərtləndirib.

**Nəticə və tövsiyələr**

DİF-in ölkələrin qlobal rəqabətlilik indeksinə dair açıqladığı hesabatda Azərbaycanın reytinqinin trend təhlili göstərir ki, Konsepsiya tətbiq olunmağa başlayan dövrdən ölkəmizin göstəriciləri yaxşılaşıb. Belə ki,  həmin hesabata görə, Azərbaycan 2011-2012-ci illər üzrə 144 ölkə arasında rəqabətə davamlı 46-cı ölkə hesab olunurdusa, 2015-2016-cı illəri əhatə edən hesabatda ölkəmiz 10 pilləyə qədər irəliləyə bilmiş və 138 ölkə arasında 37-ci yerdə qərarlaşmışdır. Lakin, ümumi rəqabətlilik indeksinin yaxşılaşması fonunda müşahidə olunan müsbət tendensiyalar sektorlar üzrə özünü doğrultmamışdır. Bunun əsas səbəblərindən biri son iki ildə  neft sektorunn aparıcı mövqeyinin zəifləməsi fonunda digər  sektorlarda inkişafı və rəqabət xarakterizə edən göstəriciləri qənaətbəxş deyildir.  Belə ki, Dövlət Statistika Komitəsinin (DSK)  2016-cı ilə  son məlumatlarına görə, ölkədə ÜDM 3,8 faiz, o cümlədən qeyri-neft ÜDM-i daha çox 5,4 faiz azalıb. Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozuna görə, 2016-cı ildə dünya iqtisadi orta hesabla 3,1 faiz, inkişaf etmiş ölkələrin iqtisadiyyatı 1,8 faiz, inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatı isə 4,1 faiz artıb. Beləliklə də 2016-cı ildə Azərbaycanda iqtisadi artım dünyadaki inkişafdan geri qalır.

Rəsmi statistik məlumatlardan göründüyü kimi, qeyri-neft ÜDM-in daha çox enişə məruz qalması bu sektorda  rəqabət qabiyyətininn aşağı düşməsinə və nəticədə də  ixracat potensialının azalmasına gətirib çıxarıb.  İxracatda qeyri-neft sektorundan əsas  növ məhsullar qrupuna  meyvə-tərəvəz, çay, bitki və heyvan mənşəli piylər və yağlar, şəkər, spirtli və spirtsiz içkilər, kimya sənayesi məhsulları, plastmassa və onlardan hazırlanan məmulatlar, pambıq iplik, qara metallar və onlardan hazırlanan məmulatlar, alüminium və ondan hazırlanan məmulatlar daxildir.  2016-cı ilin yanvar-noyabr ayında   2015-ci ilin eyni dövrü ilə müqayisədə  qeyri-neft sektorunda daxil olan ixrac malları arasında  meyvə-tərəvəz, pambiq iplik, qara metallar, alüminium və onlardan hazırlanan məmulatlarda artım qeydə alınıb. Digər malların ixracatında isə müqayisə olunan dövr ərzində azalma qeydə alınıb. Həmin dövrə olan gömrük məlumatına görə,   Azərbaycanın bütövlükdə qeyri-neft ixracatı 1 milyard 117 milyon 700 min dollar olub ki,  bu da 2015-ci ilin yanvar-noyabr ayı ilə müqayisədə 17,8 faiz azdır.

Qeyri-neft ixracatının struktur təhlili göstərir ki, ixracat qabliyyəti artımla müşahidə olunan mal qrupları arasında  kənd təsərrüfatı və metallurgiya sektorunun potensialı daha yüksəkdir. Odur ki, bunları  nəzərə alaraq hökümət hazırda milli iqtisadiyyatın rəqabət qabliyyətinin artırılması üçün

həmin sektorların inkişafına üstünlük verir. Belə ki, ötən il 51,8 min hektar sahədə pambıq, 7,1 min hektar sahədə şəkər çuğunduru, 8,2 min hektar sahədə dən üçün günəbaxan, 2,4 min hektar sahədə tütün əkilib. Bununla yanaşı, cari ildə respublikanın 30 rayonunda 1,6 milyon tut ağacının əkilməsi nəzərdə tutulub. Müqayisə üçün qeyd edək ki, 2015-ci ildə pambıq əkin sahəsi isə son 10 il ərzində 5 dəfə azalaraq 18 min 700 hektara olub. 2016-cı ildə 52 min hektarda pambıq əkilib. Cari ildə 128 min hektarda pambıq əkini gözlənilir.

Pambıq və digər texniki bitkilərinin əkin sahəsinin genişləndirilməsi Azərbaycan kənd təsərrüfatında ənənəvi təsərrüfatçılığın bərpası məqsədilə həyata keçirilir ki, burda da əsas məqsəd dünya bazarına rəqabətqabliyyətli məhsul çıxarmaqdan ibarətdir.

Metallurgiya və almunim sənayesinə gəlincə, hələ 2014-cü ilin 26 dekabrında qəbul eilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramında[18] iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və strukturunun təkmilləşdirilməsi baxımından metalurgiya sənayenin inkişafı ölkədə aparılan iqtisadi siyasətin əsas prioritetlərindən biri kimi təqdim olunurdu. Bununla yanaşı, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"[19]nda da metallurgiya sənayesinin inkişafına dair mühüm tədbirlər nəzərdə tutulub. Bundan əlavə, 6 dekabr 2016-cı ildə "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi" də təsdiq olunub.

Yekun olaraq onu qeyd etmək istərdik ki, Azərbaycanın qeyri–neft ixracı 2004–2014-cü illərdə orta hesabla ildə 17 faiz artsa da, (2014-cü ildə 1,6 milyard ABŞ dolları) neft ixracından 16 dəfə, qeyri-neft idxalından 5 dəfə aşağıdır. Yəni qeyri–neft ixracı qeyri–neft idxalının maliyyələşdirilməsinə imkan verməmişdir ki, bu da qeyri–neft ixracının şaxələndirilməsini labüd edir. Odur ki, Stareteji Yol Xəritələrində və Konsepsiyanın 4-cü bölməsində qarşıya qoyulan hədəflərə çatmaq istiqamətində bir sıra fəaliyyətlər həyata keçirilib, lakin həm kənar və həm də daxili amillərdən qaynaqlanan yeni makroiqtisadi və makromaliyyə şəraitin müasir tələbləri və çağırışları bu sahədə görüləcək işlərin potensialının yüksək olmasını təsdiq edir. Odur ki, "Yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru" nailiyyətlər əldə etmək üçün aşağıdakı təkliflər irəli sürülür.

**1.** İqtisadiyyatın liberallaşdırılması, ticarətin açıqlığı və sahibkarlığın təşviqi sahəsində islahatlar hazırda tətbiq olunan Stateji Yol Xəritəsinin aparıcı xəttini təşkil etməlidir.

**2.** Sağlam rəqabətin dəstəklənməsi sahəsində dövlət siyasətinin əsasını təşkil edən hüquqi bazanı inkişaf etdirmək üçün Milli Məclis "Rəqabət Məcəlləsi"nin qəbulunu sürətləndirməlidir.

[18] http://www.president.az/articles/13903

[19] http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=2093:2014-2018-dp-ferman&catid=101&Itemid=263&lang=az

**3.** Qeyri-neft ixracatının stimullaşdırılması məqsədilə xarici bazarlara çıxışı olan şirkətlərin xərcləri azaldılması və onun əsas hissəsi uzun müddətli ixracat kreditləşməsi vasitəsilə maliyyələşdirilməlidir.

**4.** Qeyri-neft sektorunda fəaliyyət göstərən, idxalı əvəz edən, ixacata məhsul göndərən şirkətlərin vergi yükü aşağı salınmalı, onlara müəyyən müddət üçün vergi tətilləri verilməli, onların investisiya fəaliyyətinin genişləndirilməsinə yönələn mənfəəti vergidən azad olunmalıdır.

**5.** Anti-inhisarçılıq fəaliyyəti gücləndirilməli, korrupsiya ilə mübarizə sürətləndirilməli, korporativ idarəetmə modeli və nəzarət sisteminin geniş tətbiqi əsasında hesabatlılıq və şəffaflıq artırılmalıdır.

**6.** Dövlətin iqtisadiyyatda rolunun azaldılması üçün iri dövlət müəssisələrinin özəlləşdirməsi və ya uzunmüddətli idarəçiliyə verilməsi davam etdirilməli və bu tədbirlər açıq tenderlər və investisiya müsaqibələri vasitəsilə reallaşdırılmaldır.

**7.** Regionların sosial-iqtisadi inkişafını sürətləndirmək üçün iqtisadi regionların maliyyə müstəqilliyi artırılması, onlar arasında rəqabət mühiti təmin edilməli, fiskal və inzibati əks mərkəzləşdirmə gücləndirməlidir.

**8.** Innovativ və bilik iqtisadiyyatının bazasında milli iqtisadiyyat modernləşdirilməli, ölkəyə qabaqcıl təcrübənin, innovasiyaların, yeni texnika və texnologiyaların gətirilməsi, nou-houların və patentlərin cəlb edilməsi vergi-gömrük və tarif siyasəti ilə stimullaşdırılmaldır.

**9.** Maliyyə-bank sektorunun sağlamlaşdırılması üçün bankların kapitalının təmərküzləşdirilməli, manatın gerçək məzənnəsinin formalaşması üçün sərbəst üzən məzənnə rejiminə keçid istiqamətində tədbirlər davam etdirilməlidir.

**10.** Milli iqtisadiyyatın neft gəlirlərindən asılılığının aşağı salınmasını və eyni zamanda reqalamentləşdirilməsini tənzimləyən fiskal qaydalar qəbul edilməlidir.

**11.** Dövlət büdcəsinin xərclər bölməsi nəticə və fəaliyyət indikatorlarına malik proqramlar üzrə təsnif olunmalı və vətəndaş cəmiyyəti institutları proqramların icrası səviyyəsinin monitorinqinə cəlb edilməlidir.

**12.** Dövlət büdcəsinin xərcləmələrin iqtisadi səmərəliliyinin artırılması üçün israfçılığa son qoyulmalı, büdcədən maliyyələşən təşkilatlar üçün xərc normativlərinə yenidən baxılmalı və onlar müasir dövrün iqtisadi gerçəkliklərinə uyğunlaşdırılmalıdır.